XƏLİYƏDDİN XƏLİLLİ

# DƏDƏ QORQUD OĞUZNAMƏLƏRİNİN YARANMA TARİXİ VƏ DİGƏR OĞUZNAMƏLƏRLƏ PARALELLƏRİN DÖVRÜ VƏ SƏBƏBLƏRİ

2007
790

Ш20
X-49

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

## XƏLİYƏDDİN XƏLİLLİ

80539

# DƏDƏ QORQUD OĞUZNAMƏLƏRİNİN YARANMA TARİXİ VƏ DİGƏR OĞUZNAMƏLƏRLƏ PARALELLƏRİN DÖVRÜ VƏ SƏBƏBLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

822410

BAKI – 2007

Ш20 (2=А3)

Azərbaycan Respublikası MEA
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur

**REDAKTORU:** **f.e.d. H.İSMAYILOV**

**RƏYÇİ:** **t.e.n., dos. Qəzənfər RƏCƏBLİ**

**NƏŞRİNƏ MƏSUL: f.e.n. Ə.ƏLƏKBƏRLİ**

**Xəliyəddin Xəlilli. Dədə Qorqud oğuznamələrinin yaranma tarixi və digər oğuznamələrlə paralellərin dövrü və səbəbləri,** Bakı, "Nurlan" nəşriyyatı, 2007.

4603000000
A -------------------- Qrifli nəşr
N – 098 – 2007

**©Folklor İnstitutu, 2007**

# DƏDƏ QORQUD OĞUZNAMƏLƏRİNİN YARANMA TARİXİ VƏ DİGƏR OĞUZNAMƏLƏRLƏ PARALELLƏRİN DÖVRÜ VƏ SƏBƏBLƏRİ

"Dədə Qorqud" oğuznamələri XIX əsrin birinci rübündən aşkarlanıb tədqiqata cəlb olunduğu vaxtdan ümumtürk folklor nümunəsi kimi dəyərləndirilmiş, dastanın Qafqazda, başlıca olaraq, Azərbaycanda yaranması, formalaşması fikri əsaslandırılmışdır. "Dədə Qorqud" oğuznamələrinin tanınmış tədqiqatçısı V.V.Bartold yazır: "Qorqud adı ilə bağlı olan epik silsilənin Qafqaz mühitindən kənarda yarandığını təsəvvür etmək çətindir" (5, 126). Dünya qorqudşünaslığı "Dədə Qorqud" oğuznamələrinin Azərbaycan etnik mühitinin və coğrafiyasının məhsulu olması qənaətindədir. Bununla bərabər, "Dədə Qorqud kitabı" oğuznamələri türkmən və Anadolu türklərinin də xalq yaradıcılıq məhsulu kimi tədqiq olunmada və dəyərləndirilmədədir (1; 2; 3; 5; 9; 10; 16; 19; 20; 21; 22; 23; 26; 27; 30; 32; 34; 35).

"Dədə Qorqud" oğuznaməsindən başqa, "Uyğur oğuzname"si, F.Rəşidəddinin "Oğuzname"si, Əbdülqazi Bahadır xanın "Şecəreyi-Tərakimə"si və başqa oğuznamələr də mövcuddur.Oğuznamələrdə vahid təfəkkür tərzinə malik aforizmlər, adət-ənənələr olduğu kimi, bütünlüklə fərqli məqamlar da var. "Dədə Qorqud kitabı"ndakı 12 boyu əhatə edən oğuznamələrdə ordasının xanlar xanı Bayındır xan, bəylər bəyisi Qazan xan, doğma vətəninin sərhəddini qorumağı müqəddəs iş hesab edən 24 sancaq bəyin həyat tərzindən bəhs olunduğu halda, F.Rəşidəddin və Əbdülqazi Bahadır xanın oğuznamələri, özlərinin qeyd etdiyi kimi, onlara qədər oğuzlar haqqında mövcud olan əfsanə, rəvayət, nağıl və s. folklor bilgiləri əsasında yazılmış əsərdir (15, 4; 28, 46).

Türkoloq A. N. Bernştam bu oğuznamələrdəki oğuzların ictimai-siyasi həyatının 5 mərhələsini - patriarxal münasibətlərin təşəkkülü, ilkin sinfi münasibətlərin təşəkkülü,Hun dövrü, Oğuzla Modenin eyniləşdirilməsi, VI-VIII əsrlər türk

dövrü və IX-XII əsrlər peçeniq-qıpçaq dövrünü müəyyənləşdirmişdir (13, 42- 43).

Avropa və Rus imperiyası alimlərinin türk xalqlarının tarixini, qəsdən dolaşdırması türk xalqlarında tarix elminin hələ də formalaşmaması səbəbindən oğuznamələrdə türklərin müştərək mədəniyyət yaratdığı dövrü, ayrı-ayrı oğuznamələrin yarandığı dövr və onlarda təsvir olunan sosial münasibətlər dəqiq aydınlaşdırılmamışdır. Ümumiyyətlə, tədqiqatlarda Oğuznamələrdə təsvir olunan etnososial hadisələrin dövrü haqqında hələ də obyektiv mövqe yoxdur. Oğuznamələr, xüsusən "Dədə Qoqdud kitabı"ndakı oğuznamələrin mövzusu, məzmunu, dövrü haqqında sadəlövh fikirlər mövcuddur. Bəzi tədqiqatçılar oğuznamələrdə türk xalqlarının müştərək mədəniyyətinin yarandığı dövrü müəyyən etmək əvəzinə, F.Rəşidəddin və Əbdülqazi Bahadır xanın oğuznamələrini "Dədə Qorqud" oğuznamələrinə calamaqla onda oğuz dövləti axtarır, digərləri Dədə Qorqudu tarixi şəxsiyyət olaraq Məhəmməd peyğəmbərin (s.a.s) həmdövrü hesab etməklə dastanın yaranma dövrünü bu çağa uyğunlaşdırır, hətta "Dədə Qorqud" oğuznamələrini Babək hərəkatı ilə bağlamışlar...

Tədqiqatımızın məqsədi türklərin müştərək mədəniyyətinin yarandığı dövrə,"Dədə Qorqud kitabı" oğuznamələrinin mövzusu, məzmunu, ictimai quruluşu və dastanların yaranma dövrünə aydınlıq gətirməkdir.

Rus şərqşünasları V.V.Bartold, A.Y.Yakubovski, V. M. Yirmunski "Dədə Qorqud" kitabında toplanan oğuznamələri ilk orta əsrlər sənət abidəsi hesab edirlər (5;6;7).

"Dədə Qorqud kitabı"nın ilk azərbaycanlı tədqiqatçılarından Ə. Abid bu əsərin feodolizm mərhələsindən əvvəlki dövrdə yarandığını yazmışdır. Həmçinin ingilis tədqiqatçısı C.Lyuis bu dastanların islamiyyətdən əvvəl yaranması haqqında birmənalı mövqe bildirmişdir (4, 19, 27). Ə.Dəmirçizadə isə dastanların VIII-XI əsrlər arasında yarandığını, H.Araslı isə XI-XII əsrlərdə yarandığını yazır (1,7). K.V.Nərimanoğlu isə təxminən, IX-XII əsrlərdə yarandığı güman edilən "Kitabi Dədə Qorqud" dastan-



larındakı "hadisələr IX-XII əsrlərə uyğundur", dastanların "XIV-XVI əsrlərdə yazıya köçürülməsi" qənaətindədir (23,5,17-18). Ş.Cəmşidov isə "Dədə Qorqud kitabı"nın təsvir etdiyi hadisələrin dövrü haqqında yazır: "Kitabi Dədə Qorqud"da Azərbaycan oğuz-türk xalqının başından keçən hadisələrin hələ e.ə.VII əsrdən başlayaraq, eramızın XV əsrinə qədər folkloristik izləri vardır"(2,58). P. Xəlilov "Dədə Qorqud" oğuznamələrinin yaranma dövrü haqqında yazır: "Dədə Qorqud" VII əsr hadisələrinə toxunsa da, özü o dövrdə formalaşmamışdır". O, dastanın yaranma dövrü haqqında aydın fikir söyləyə bilmir (28,83). E.Əlibəyzadə "Dədə Qorqud kitabı"ndakı hadisələrin VI-VII əsrləri əhatə etdiyini və dastanların da həmin dövrdə yarandığını yazır (4,29,39). Tofiq Hacıyev isə bu oğuznamələrin yaranma dövrü haqqında yazır: "M. Kaşqarlı "Divan"ının şerində heca və qafiyənin tam müəyyənləşdiyini nəzərə alaraq, cəsarətlə demək olar ki, "Dədə Qorqud kitabı"nın şeri ondan çox-çox qədimlərə gedir: bu iki abidənin şer tipi arasında beş yüz - min illik təkamül fərqi var"(3,4).

"Dədə Qorqud kitabı" oğuznamələrinin tarixinin obyektiv müəyyənləşdirilməsi istiqamətində görülən işlərdə yazıçı Anarın xidməti xüsusi qiymətləndirilməlidir. O, "Dədə Qorqud kitabı" oğuznamələrinin birmənalı Azərbaycan hadisəsi olmasını əsaslandırmış, kompleks müqayisəli materialla, tarixi müqayisəli metoddan istifadə edərək "Dədə Qorqud kitabı" oğuzların eranın əvvəllərində Azərbaycanda mövcudluğuna aydınlıq gətirmişdir (20).

Tədqiqatçılardan H.Məmmədli "Dədə Qorqud" boylarının bəzi epizodlarının tarixini eramızdan əvvəlki yüzilliklərdən məlumat verdiyini yazır (96, 91). MEA-nın müxbir üzvü,tarixçi M.İsmayılov, dilçi V.Aslanovun "Dədə Qorqud kitabı"nın eramızın II-IV yüzilliklərində yaranması haqqında mülahizəsini tənqid edərək yazır ki, "onun dastandakı adət-ənənələri II-IV əsrlərə aid etməsi ilə razılaşmaq olmaz. Əvvəla, "Kitabi Dədə Qorqud"dakı dastanların hamısı eyni dövrün məhsulu deyildir. İkincisi, ən başlıcası isə yuxarıda göstərdik ki, dastandakı hadisələrin çoxu

əsasən hərbi-demokratiya dövrünə xasdır. Halbuki, II-IV əsrlərdə Azərbaycanda sinifli cəmiyyət çoxdan yaranmışdı" (97, 281-282). Göründüyü kimi, M.İsmayılov "Dədə Qorqud kitabı"nın yaranması haqqında qəti fikir söyləməsə də, "Dədə Qorqud" oğuzlarının sosial inkişaf səviyyəsinə görə, dastanların yaranma dövrünü müəyyən etmək üsulu ilə bu sahədə obyektiv nəticələrə gəlinməsinin düzgün yolunu müəyyən etmişdir.

Müqayisəli araşdırmamız göstərir ki, "Dədə Qorqud kitabı"nı yaradan Azərbaycan oğuzlarının tarixi, kitabda cərəyan edən hadisələrin dövrü haqqında ən dolğun, həqiqəti əks etdirən faktlar, elmi-məntiqi arqumentlər tarixçi etnoqraf Qəzənfər Rəcəblinin "Dədə Qorqud oğuzlarının ilkin vətəni haqqında "adlı əsərində meydana çıxarılmışdır(35). Q.Rəcəbli çoxsaylı mənbə və tədqiqatlardakı tarixi məlumatları müqayisəli təhlil edib yazır ki, "Dədə Qorqud" oğuzları e.ə III minillikdə Akkad dövlətində 100 il hökmranlıq etmiş kutilərdir. Kutilərin nəsli isə sonralar oğuz adlanmışlar. "Dədə Qorqud" dastanlarını yaradan və bu qəhrəmanlıq eposunda mədh olunan oğuzlar elə həmin Azərbaycan oğuzlarıdır. Həm də bu Azərbaycan oğuzları müstəqil etnik birlik kimi çıxış edirlər. Onların qəbilə ictimai münasibətlərinə və hərbi demokratiyaya əsaslanan müstəqil dövlətləri vardır (Bizcə, bu məqamda formalaşırdı fikri daha müvafiq olardı - X.X.). "Kitabi Dədə Qorqud"dakı Azərbaycan oğuzlarının nə Manna, nə də Midiya dövlətləri, nə Əhəmənilərin və Makedoniyalı İskəndərin hakimiyyətləri, nə Atropaten və Alban dövlətləri, nə Azərbaycan Parfiya rəqabəti, nə Sasanilərin işğalları, nə də ərəb istilaları haqqında təsəvvürləri yoxdur. "Kitabi Dədə Qorqud"da islamın təsiri hiss edilmədiyi kimi, xristianlıq və zərdüştlükdən də əsər-əlamət yoxdur" (35). Q.Rəcəblinin dediklərinə əlavə olaraq bildiririk ki, "Dədə Qorqud" oğuznamələri yarandığı dövrdə tarix səhnəsində nə erməni (hay), nə də Ermənistan anlayışı vardı. Hazırda Ermənistan adlanan ərazi Azərbaycanın İrəvan, Göyçə, Zəngəzur mahallarıdır.1920-ci ildə fus imperiyası tərəfindən təkrar işğal edilib, buraya köçürülən ermə-



nilərə dövlət yaradılıb. Q.Rəcəbli yazır: "Dastanlarda təsvir edilən hadisələr üçün sadaladığımız siyasi, hərbi və dini proseslərin zaman dairəsində əlverişli tarixi zəmin yarana bilməzdi. Cox ehtimal ki, "Dədə Qorqud" dastanları öz süjetlərini e.ə III-I minilliklərdə Azərbaycan ərazisində baş vermiş hadisələrdən götürmüşdür". O, sözünə davam edərək yazır ki, "Kitabi Dədə Qorqud" 12 boydan ibarət olduğu kimi, qədim şümerlərdə də 12 boydan ibarət "Gilqamıs" dastanı olmuşdur. "Kitabi Dədə Qorqud"un bəzi boylarında Gilqamıs dastanının motivləri hiss edilir. Əks halda heç bir xalq birdən-birə "Kitabi Dədə Qorqud" kimi epos yarada bilməzdi (35).

Q. Rəcəblinin bütün arqumentləri ilə razıyıq, lakin bu arqumentlər çox incə, hərtərəfli, obyektiv əsaslandırılmalıdır. Bütün oğuznamələrdə əks olunan ümumtürk mədəniyyətinin özülü, ümumi olan ilkin inam və etiqadlar, dünyabaxışı, adət-ənənələr, əxlaq qaydaları, mental xüsusiyyətləri verən ilkin qədim dövr, buna müvafiq olaraq ümumtürk Dədə Qorqudu, ayrı-ayrı ölkə oğuzlarının ictimai quruluşu, tarixi dövrü, "Dədə Qorqud kitabı" oğuznamələrində farslar və ərəblər xatırlanmadığı halda dastanlarda fars-ərəb sözlərinin işlənməsi, dastanlardakı islam ideyalarının daxil edilmə səbəbləri və onların dastanlarda təsvir olunan hadisələrin məzmununa daxil ola bilməməsi haqqında aydın,obyektiv təsəvvür yaradılmalı, bilgi ortaya qoyulmalıdır.

İnsan öz varlığı, yaranışı və dünyaya yayılması etibarı ilə təbiətdən asılı olmuş, onun təsiri altında dünyanın müəyyən regionlarında meydana çıxmış, Yer kürəsinin digər ərazilərinə yayılmışdır. Canlı həyat üçün, yəni bitki və heyvanat aləmi üçün şərait yaradan ilk əsas dövr miosen dövrüdür (e.ə 7-3,2 milyon illər). Bu dövrün istiləşməsi, Şimal-şərqi Afrika ilə bərabər Qafqazın Böyük və Kiçik Qafqazın bitki və heyvanat aləminin yaranması və inkişafında mühüm rol oynayır, insan əcdadının yaranması və inkişafı üçün əsas yaradır. Nəhayət, bu geoloji dövrdən sonra Yer kürəsini müasir formaya salan-geologiya elmində dördüncü dövr adlanan mərhələ başlayır, bu mərhələ Azərbaycanda e.ə 2 milyon ildən 10-cu minilliyə

qədər olan dövrü əhatə edir. Onun son dövrü holosen, arxeoloji dövrlə mezolit dövrünə uyğun gəlir.

Miosen dövrünün təbii iqlim şəraitinin nəticəsi olaraq, dördüncü dövrün başlanğıcında, yə'ni e.ə 2 milyonuncu ilin əvvəllərində Qafqaz və Yaxın Şərqdə insan əcdadının ilk nümayəndələri Azərbaycanda-Qarabağın Azıx mağarasında görünürlər.

Lakin Qafqazda insan əcdadlarının ilk görüntüləri yarandığı dövrün başlanğıcında iqlimin soyuqlaşması, quraqlaşması, vulkanların fəallaşması, bununla əlaqədar dağların yüksəlməsi, bitki və heyvanat aləminin kasıblaşması baş verir. Azərbaycan düzənlərinin əsas hissəsi Xəzərin suları altında qalır. Aşel, mustye və üst paleolit dövründə yeni buzlaşmalar və istiləşmələr baş verir. Beləliklə, Xəzərin sularının qalxması və enməsi, təbiətin istiləşməsi və soyuması ilə buzlaqların yaranması və əriməsi, vulkan və qabarmalar Azərbaycanın müasir relyefini yaradır. İqlim dəyişikliyi bir çox bitki və heyvan nəslini məhv etsə də, yeni yaranan kiçik mikroiqlimlər, bə'zi bitki və heyvanların, o cümlədən Azıx mağarasında məskunlaşmış insan nəslinin varlığını davam etdirməsinə imkan verir. Azərbaycan şimal-şərqi Afrika ilə bərabər bəşəri sivilizasiyanın ilkin ocağı funksiyasını yerinə yetirir. Paleolit dövründə Azərbaycanda Azıx mağarasından da başqa, yeni yaşayış məkənləri də yaranır. Lakin Azıxı da əhatə edən Qarabağın Quruçay vadisi mədəniyyət mərkəzi kimi formalaşır. Sonrakı Azərbaycan və Qafqaz paleolit mədəniyyətinin əsasına çevrilir. Tədqiqatçılar Azərbaycan orta paleolitinin məhz Quruçay mədəniyyəti əsasında yarandığını, bu mədəniyyətin Yaxın Şərqdə əsas mədəniyyət ocağı olmaqla bütün region mədəniyyətinə tə'sir etməsini, həmçinin Orta Asiya və Türkmənistanın Xəzərsahili vilayətlərinin alt paleolitinin Qafqaz və Kiçik Asiya mədəniyyəti ilə əlaqəli inkişaf etdiyini müəyyən etmişlər [48, 22, 47-49, 69]. Arxeoloji və paleoantropoloji tədqiqatlar göstərir ki, pOrta Asiya mustye mədəniyyəti Yaxın Şərqlə əlaqəli olmuş, Orta paleolit neandertalı Yaxın Şərq neandertalı ilə təmasda ümumi mədəniyyət yaratmışlar (48,47-



49). Qafqaz üst paleolit mədəniyyətinin Orta Asiyada geniş yayılması üst paleolit adamı Homo sapiensin orta Asiyaya Qafqazdan getdiyini göstərir (50, 58-59; 48, 57-58).

Mezolit dövrünün iqlim dəyişməsi, Yer kürəsində iqlimin ümumi qlobal istiləşməsi, Azərbaycanada buzlaqların tam əriməsi, buzlaqların şimala doğru çəkilməsi nəticəsində Qafqazdan ən güclü miqrasiyalardan biri Yaxın Şərqə - İkiçayarasına gedir (51, 19; 52, 59-60; 53, 51-58). Bu miqrasiya prosesində Orta Asiya, Türkmənistan və Xəzərin digər sahillərində vahid Xəzərsahili, Qafqaz və Ön Asiya mənşəli mədəniyyətlər yaranır (48,60). Kama, Uralboyu və hətta uzaq şimalda belə yerli paleolitlə əlaqəsi olmayan Orta Asiya (Qafqaz) mənşəli mezolit mədəniyyəti yaranır(53,55).

Avrasiyanın Xəzərsahili vilayətlərinin ən qədim dövrlərdən ümumi mədəniyyət yaratması təbii-tarixi bir proses olub, Xəzər dənizinin təsiri altında yaranırdı. Hər tərəfdən dağlarla əhatə olunmuş Xəzər dənizinə axan çayların sahillərində məskən salmış qəbilələr daima çayın sahili boyu müxtəlif istiqamətdə hərəkət edir, yenidən onun deltasına qayıdır, ilin müəyyən dövrünü Xəzərin sahillərində yaşayırdılar. Bu zaman Xəzərin sahillərində yeni qəbilələrlə təmasa girir, xüsusən ailə qurma üçün qəbilə daxili nikahlar eqozqam (qadağan) olduğundan, bu təmaslar qəbilələr arası nikahlar üçün ən əlverişli məqam, şərait yaradırdı. Beləliklə, Xəzərin sahillərində qəbilələr qohumlaşır, parçalanır, yeni birliklər yaradır, yollarını dəyişib bir çayın sahilindən digər çayın sahilinə keçir, yeni yollar qət edir, yenidən çayın deltasına qayıdırdı. Mövsümi Xəzərin ətrafına enən, burada müvəqqəti dayanan qəbilələr nəhayət, mezolit dövründən onun sahillərində məskunlaşırlar. Onlar nəinki Xəzərin sahillərini zəbt edir, ixtira etdikləri qayıqlar, gəmilər vasitəsilə Xəzərin sularını da zəbt etməyə başlayırlar. Balıq ovçuluğu təkmilləşir, xüsusi peşəyə çevrilir. Beləliklə, əvvəllər Xəzərə tökülən çayların sahili ilə mövsümü Xəzərin sahillərinə enib, yenidən çay boyu geriyə qayıdan qəbilələr onun sahillərində məskunlaşmağa başlayır, Xəzər sahillərində

böyük toplumlar yaranır. Bu toplumların parçalanıb yeni ərazilərdə məskunlaşması, parçalanmış qəbilələrin yeni birliklər yaratması əhali artımını və yeni ərazilərdə məskunlaşmanı və etnokonsolidasiya prosesini sürətləndirirdi. Beləliklə, Şərqi və Cənub Şərqi Xəzər sahillərinin əhalisinin, Azərbaycanın qərbi və şimali-qərbi Xəzər əyalətlərini əhatə edən etnomədəni "Xəzər arxeoloyi əyaləti"- Xəzər ətrafı etnomənəvi, tarixi etnoqrafik əyalət yaranır ki, bu mədəniyyət də Qafqaz və Ön Asiya mənşəlidir(48 ,60; 54, 57; 55, 13-14).

Mezeolit dövrü öz yenilikləri ilə cəmiyyətin inkişafına təkan verdi. İnsanların ox və yayı kəşfi, əkinçiliyə başlaması, heyvanları əhilləşdirməsi onların həyat fəaliyyətini canlandırır, tələbatlarının ödənilməsi üçün yeni imkanlar açır. İqtisadi fəaliyyətin istehsal sahələrinin yaranması ilə əmək məhsuldarlığının yüksəlməsi, yeni ərazilərdə məskunlaşma əhalinin artımını da sürətləndirir. Sosial həyatda çoxçalarlı inkişaf başlayır. Üst paleolitdən formalaşan antropoloyi tipin yaranması, yəni antropoloqların Aralıq dənizi irqi adlandırdığı irqin vahid Xəzərsahili kaspi tipi yarandı (55). (Avropamərkəzçilik nəzəriyyəsinin yaranmasından sonra bu antropoloyi tip avropoid adlandırıldı). Sürü icması nəsli qəbilə icma quruluşu ilə əvəz olundu. Şimali Afrika, Kiçik Asiya və Qafqaz hüdudunda formalaşan ulu dil üst paleolit və mezeolit dövrü miqrasiyaları prosesində yeni ərazilərdə məskunlaşan əhali arasında yeni çalarlar alaraq sonradan bu dilin yeni dialektləri formalaşmaya başladı (56, 16). Kökləri Azıx mağarasında olan, Kiçik Asiyadan Şərqi Avropaya, Altaylara qədər vahid maddi və mənəvi mədəniyyəti, antropoloji tipi olan Xəzərsahili mədəniyyətin yaradıcılarının dili ilkin olaraq ulu dilin prototürk dili kimi, son inkişaf prosesində müstəqil türk dili kimi formalaşır (ətraflı bax: 56).

Nəyə görə "kökləri Azıx mağarasında olan" deyirik? Ona görə ki, ən qədim daş dövründən Azıx mağarasını da əhatə edən Qarabağın Quruçay arxeoloji mədəniyyətində bütün arxeoloji dövrlərində həyat fasiləsiz davam etmiş, etnik mədəniyyət dəyişməsi baş verməmişdir. İnsanın başlıca problemi olan



qida ehtiyatı anlayışı dildə ayı ilə bağlı burada yaranır. Qış yuxusuna getməklə insanın qida ehtiyatına çevrilən ayıya azıx, onun qış yuxusuna getdiyi mağaraya Azıx mağarası adı verilmişdir (42). Dilçilərin qənaətinə görə "azıx" sözü ulu dilin türk dialekti yarandığı çağların terminidir (57, 25-26).

Mezeolit dövründən sonra sosial inkişafa inqilabi təsir göstərən, əhalinin məskunlaşmasında həlledici dövr-neolit inqilabı Xəzərsahili vahid neolit mədəniyyətini yaradır. Xəzərsahili mədəniyyət zaman-zaman Zaqafqaziyadan - Azərbaycandan impuls alır. İkiçayarası ən güclü neolit əkinçiliyində Qafqazdan gələn əhali İkiçayarası, Azərbaycan sərhədləri hüdudunda yaradır, e. ə. IV minilliyin sonunda Şumer dövlətini də onlar yaradırlar (51, 18-19; 67, 38).

Xəzərsahili vilayətin mezeolit dövründə formalaşan, etnik mədəniyyətin inkişafı Mesopotomiya ilə əlaqəli eneolit, tunc və dəmir dövründə də davam edir. Məhəlli çalarlar istisna olmaqla, oxşar maddi və mənəvi mədəniyyət, inam və etiqad, adət-ənənə Aralıq dənizi irqinin (avropoid) Kaspi tipi zəminində inkişaf edir. (53, 27-68, 86-129, 137-138, 153-156; 54, 57-74; 55; 59; 60; 61; 62, 15-27). Onların vahid mədəniyyəti dildə, vətənlərinə və digər obyektlərə verdikləri adlandırmalarda da özünü göstərir. Xəzəri şimal və qərbdən əhatə edən dağlar kimi onu cənubdan əhatə edən dağları da Qafqaz adlandırırlar. Don, Xəzərə tökülən Volqaya, Kiçik Asiyadan başlayıb Azərbaycandan keçib Xəzərə tökülən çaya Araz, Türkmənistanın cənubunda yerləşən Aral gölünə, müəyyən dövrlərdə Xəzər dənizinə tökülən Amudərya və Sırdərya çaylarına, Mesopotomiyada bir çaya Araz adı vermişdilər (63, 31-126, 191; 64; 65, 25; 66, 67-68).

E. ə. IV minilliyin sonu III minilliyin başlanğıcında daha məhsuldar tunc əmək alətlərinin yaradılması ilə ictimai inkişafın ilk tunc dövrü adlanan yeni mərhələsi başlanır. Əmək məhsuldarlığının inkişafına güclü təsir edir. Əmək məhsuldarlığının artımı əhali artımına imkan yaradır. Əhalinin artan tələbatının ödənilməsi, əmək məhsuldarlığının daha da yüksəldil-

məsini tələb edir. Bunun nəticəsi olaraq maldarlığın əkinçilikdən ayrılması kimi birinci ictimai əmək bölgüsü baş verir, əhalinin sosial təbəqələşməsi və yeni ərazilərdə məskunlaşması prosesi gedir. Qəbilə-tayfa daxilində patriarxal ailələr yaranır. Cəmiyyətdə, ailədə kişi hakim mövqe qazanır. Xəzərsahili vilayətin Azərbaycanda lokal formalaşan Kür-Araz mədəniyyətinin yaradılmasının e. ə. IV minilliyin sonu - III minilliyin əvvəlində Xəzərin sahillərini Mesopotomiya, Anadolu yaylası, İran və Suriyanı, Şimalda Osetiyaya qədər əraziləri əhatə edən miqrasiyası baş verir. Bu miqrasiya Xəzərsahili vilayətlərdə etnokonsolidasiya prosesini daha da sürətləndirir, bu dövrdə sosial həyatda baş verən dəyişikliyi əks etdirən, türkcə Kurqan adlanan dəfn abidələri yaranır (48; 53, 98-120; 54, 67-71; 58; 70, 159-167; 71, 58-72).

İkinci minilliyin birinci yarısı, orta tunc dövründə sənətkarlığın əkinçilikdən ayrılması, ikinci ictimai əmək bölgüsü Xəzərsahili vilayətdə iqtisadi-siyasi etnomədəni proseslər, sosial təbəqələşməni daha da sürətləndirir, ilk etnik mədəniyyətləri formalaşdırır ki, bu da sinfi cəmiyyətə keçidi daha da sürətləndirir (53, 98-120; 54, 67-73; 71, 38).

E. ə. II minilliyin ikinci yarısı, 1-ci minilliyin ilk yüzilliklərini əhatə edən son tunc ilk dəmir dövrü Xəzərsahili etnomədəni vilayətdə qəbilə və tayfaların sosial təbəqələşməsi sürətlənir, sosial strukturların yeniləşməsi özünü aydın göstərir, müəyyən ərazilərdə böyük tayfa ittifaqları yaranır ki, artıq qəbilə-tayfa təşkilatı ağsaqqallar şurası bu yeni birliyi idarə etməyə qadir olmur. "Qohum tayfalar arasında ittifaqlar bəzi yerlərdə müəyyən ehtiyac olduqda bağlanırdı və bu ehtiyac aradan qalxdıqda, ittifaqlar da pozulurdu. Əvvəllər qohum olub, lakin bir-birindən ayrı düşmüş olan tayfalar isə ayrı-ayrı yerlərdə birləşib uzun müddət ittifaqlar yaradırdılar, beləliklə də, millətlər yaranması yolunda ilk addım atırdılar" (72, 249). Bütün Xəzərsahili vilayətlərdə vahid etnik mədəniyyətə malik qəbilə və tayfaların regional konsolidasiyası başlayır. "Əhalinin artmaqda olan sıxlığı, adamları istər daxildə, istərsə xarici aləm



qarşısında daha sıx birləşməyə məcbur edir. Qohum tayfaların ittifaqı hər yerdə bir zərurət olur, tezliklə də bunların hətta birləşməsi və beləliklə də, tayfaların ayrı-ayrı ərazilərinin bütün xalqın ümumi bir ərazisi halında birləşməsi zəruri olur. Xalqın hərbi rəisi - rex, basilevs, thidans-zəruri, daimi bir vəzifəli şəxs olur. Xalq yığıncağı hələ mövcud olmadığı yerdə meydana gəlir. Hərbi rəis, Şura, Xalq yığıncağı qəbilə quruluşundan inkişaf edən hərbi demokratiyanın orqanlarını təşkil edir. Ona görə hərbi demokratiya idi ki, indi müharibə və ondan ötrü təşkil olunmaq xalq həyatının daimi vəzifələri olur... irsi kral hakimiyyəti və irsi əyanlar üçün təməl qoyulur" (72, 314).

Paleolit dövründən son tunc dövrünə qədər Xəzərsahili vilayətdə yaranmış vahid etnik mədəniyyət son tunc dövründən başlayan regional etnokonsolidasiya prosesində ümumi etnik mədəniyyəti də yaşatmaqla bərabər fərqli xarakter xüsusiyyətlər kəsb edən xalqların yaranması prosesi başlayır.

Xəzərsahili vilayətdə türk qəbilə və tayfalarının millətləşmə və dövlətləşməsi bəzi lokal ərazilərin çox münbit təbii-coğrafi şəraiti və əhali sıxlığı ilə əlaqədar bir qədər qədimdə baş verməsi və bəzi regionlarda ləngiməsi istisna olmaqla, ümumən, e. ə. II minilliyin ikinci yarısı, birinci minilliyin başlanğıcında baş vermişdir. Xəzərsahili vilayətlərdə millətləşmə və dövlətləşmə Mesopotomiyada və Azərbaycanın onunla həmsərhəd ərazilərində xeyli əvvəl başlasa da, bütün Azərbaycanı əhatə edə bilməmişdi. Lakin ilkin dövlət qurumları haqqında bu təsəvvürlərin nəticəsi idi ki, son tunc dövründə millətləşmə, dövlətləşmə bütün Xəzərsahili vilayətləri əhatə edən bu proses Azərbaycanda daha sürətlə getdi.

Bəşəri, ümumi qanunauyğunluq olaraq, ilk millətləşmə, dövlətləşmə-hərbi demokratiya mərhələsində qəbilə və tayfalar ilkin etnik inancları, adət-ənənə, əxlaqi dəyərləri ilə bərabər, yeni quruculuğu da əhatə edən folklor nümunələri - əfsanə, nağıl, zərb misallar, dastanlar və s. yaradır (68). Bu folklor materialları qəbilə və tayfaların inanc və mədəni dəyərlər sisteminin məcmusu olaraq, yeni toplumun mənəvi

dəyərlər sistemini, dünyabaxışını, mentalitetini verməklə, bu təməl üzrə onu tarixə təqdim edir. Bu ilkin etnik-milli sima - mentalitet toplumu başqa toplumlardan fərqləndirən başlıca keyfiyyət olur. Bu əxlaqi dəyərlərin-mentalitetin yaşayıb inkişaf etdiyi dövr xalqın tarixini təşkil edir.

E. ə. II minilliyin sonu birinci minilliyin əvvəllərində Xəzərsahili etnik mədəniyyətin millətləşməsi və dövlətləşməsi prosesində formalaşan yeni toplumların mentalitetini əks etdirən əfsanə, nağıl, rəvayət, zərbmisallar, qəhrəmanlıq dastanları və s. folklor materiallarının yaranması ilə müşaiyət olunur. Bu çoxjanrlı folklor materialları arasında türk qəbilə və tayfalarının inanc, adət-ənənə, dünyabaxışı və s. məcmusu olaraq, xalq kimi təşəkkülün ilkin çağında yaranan toplumların simasında vahid milli dəyərlər kimi təcəssüm edən mənəvi dəyərləri özündə kompleks cəmləşdirən folklor nümunələri oğuznamələrdir. Oğuznamələr arasında xalq kimi ilkin təşəkkül çağının bütün etnopsixoloji cizgilərini, adət-ənənələrini, idarəçiliyini və s. olduğu kimi, günümüzə çatdıran isə Azərbaycan "Dədə Qorqud" oğuznamələridir.

Folklor materialları, birinci növbədə ilkin yaranış dastanları yarandığı vaxtdan bütün dünya xalqlarında etnik pedaqogikanın (milli tərbiyə üsulunun) başlıca vasitəsi olmuşdur. Ailələrdə valideynlər vasitəsi ilə, məclislərdə və mərasimlərdə ağsaqqallar və ya bu işi icra edən xüsusi adamlar vasitəsilə zaman-zaman yeni nəsillərə aşılamaqla, milli inkişafı ilkin təməl üzərində aparmışlar. Bu prosesdə folklor materialları dəyişir, yeniləşir, bə'zən ən qədim dövrün hadisələri çox uzaq məsafədəki son dövrün hadisələrinə uyğunlaşdırılır. Tarixdən, onun qanunauyğunluğundan xəbərsiz və ya natamam bilgiyə malik tədqiqatçılar bu qanunauyğunluqları dərk edə bilmədiklərindən folklor əsərlərini həqiqi dövründən və məzmunundan uzaq, başa düşdükləri, ya da arzu etdikləri kimi izah edirlər. Bunun bariz nümunələri ümumən oğuznamələrin, birinci növbədə, Azərbaycan "Dədə Qorqud kitabı" oğuznamələri haqqında yazılmış əsərlərdir.

"Dədə-Qorqud kitabı" və Orta Asiya oğuznamələrindəki



müştərək cəhətlər yuxarıda göstərdiyimiz kimi son tunc dövrünə qədər oğuzların həyatında mövcud olmuş, sonra da onların həyatında yeni çalarlarla davam edən inam, etiqad, adət-ənənə, ağsaqqallıq institutları, əxlaq qaydaları və s.-dir. Son tunc dövründən Xəzərsahili vilayətlərdə oğuzların regional məskunlaşmaları və etnokonsolidasiyası, sosial təbəqələşməsi, ayrı-ayrı xalqlar kimi formalaşması və inkişafı onların məişət və mədəniyyətində yeni və fərqli xüsusiyyətlər yaradırdı.

Xəzərsahili etnomədəni vilayətdə son tunc dövründən başlayan millətləşmə və dövlətləşmə prosesini özündə əks etdirən zəmanəmizə gəlib çatmış Orta Asiya və Qafqaz oğuznamələrindəki ciddi fərqləri doğuran başlıca səbəb Orta Asiyada və Qafqazda ictimai və milli inkişafın sür'ət fərqində idi. Təbii-coğrafi şərait və digər səbəblər Orta Asiyada son tunc – ilk dəmir dövründə konkret ərazilərdə formalaşan orda-el-tayfa ittifaqları sinfi cəmiyyətin yaranması ilə feodalizm cəmiyyətinə uyğunlaşdı. Orta Asiya türklərində millətləşmə prosesi çox ləng gedirdi. Etnokolsolidasiyanın başlıca vasitəsi olan dövlətlər Orta Asiyada tez-tez süqut etdiyindən, etnokolsolidasiya prosesi də tez-tez pozulurdu. Belə ki, dövlətləri təşkil edən tayfa ittifaqları daima bir dövlətdən-eldən digərinə keçirdi. Bununla da etnokolsolidasiya - millətləşmə prosesi pozulur, zəif gedirdi. Orta Asiya oğuzları arasında tayfa-el sistemi bütün orta əsrlər boyu davam etmişdir (11; 25). Buna uyğun olaraq, oğuznamələrdəki ilkin qəbilə-tayfa mərhələsində təsvir olunan adət-ənənələr, feodal istehsal üsuluna, qaydalarına yiyələnmiş oğuz tayfalarının adətlərinə uyğunlaşdırdı. Beləliklə, Orta Asiya oğuznamələrində təsvir olunan ibtidai icma quruluşu tayfa münasibətlərini feodalizm dövrünün tayfa münasibətlərindən fərqləndirmək son dərəcə çətinləşdi.

Orta Asiyadakı ictimai münasibətlərdən fərqli olaraq, "Dədə-Qorqud kitabı" oğuznamələrində təsvir olunan Qafqaz-Azərbaycan el-hərbi demokratiya sistemi e. ə. II minilliyin ikinci yarısı, 1-ci minilliyin 1-ci rübündə gedən etnososial prosesdə başa çatdı və millətləşmə-dövlətləşmə ilə nəticələndi.

Azərbaycan oğuzları xalq kimi ilkin təşəkkül edib, siyasi idarəçilik təşkilatı olan sabit dövlətini də yaratdı. El - "orda" bu xalqın yeni yaratdığı etnososial-siyasi sistemin bir hissəsinə, ordu quruculuğu formasına çevrildi (71).

Azərbaycanda tayfa ittifaqının sosial-iqtisadi və siyasi münasibətləri qalmadığından "Dədə-Qorqud kitabı" oğuznamələrini yeni dövrə - ilk dövlətçilik və feodalizm dövrünə uyğunlaşdırmağa ehtiyac qalmadı. Azərbaycan "Dədə-Qorqud kitabı" oğuznamələri bu ölkə oğuzlarının hərbi-demokratiya, etnik-milli simanın formalaşdığı dövrü əks etdirən, kompleks milli tərbiyə funksiyasını ehtiva edən etibarlı, tarixi bir sənəd kimi yaşadı. O, milli tərbiyənin, xalq pedaqogikasının sanki bir dərsliyi olaraq, Azərbaycan türklərinin milli zəmində inkişaf etdirilməsi vasitəsi kimi XVIII əsr də daxil olmaqla ozanlar, aşıqlar dastanlardan adət-ənənəni, əxlaq qaydalarını, bütövlükdə milli yaranış çağının mənəvi sistemini xalqa aşılamaqla onun milli ruhunu verirdi. "Dədə Qorqud kitabı" oğuznamələrindəki zərbmisallar, alqışlar, dualar, qarğışlar və s. hikmətlər yarandığı gündən hər bir Azərbaycan türkünün məişətdə işlətdiyi mənəvi dəyərlər sistemi olaraq bütün tarixi dövrlərdə yaşamış və yaşamaqdadır.

Azərbaycan "Dədə Qorqud kitabı" oğuznamələrinin Orta Asiya oğuznamələri ilə müqayisəsi göstərir ki, "Dədə Qorqud kitabı" oğuznamələri yarandığı dövrdən sonrakı 2800-3000 illik müddətdə baş verən heç bir sosial-siyasi hadisənin təsirinə məruz qalıb məzmununu dəyişməmişdir. Heç bir hadisə "Dədə Qorqud kitabı" oğuznamələrinin məzmununa təsir edə bilməmişdir.

"Dədə Qorqud kitabı" Azərbaycan oğuzlarının hərbi-demokratiya sosial-siyasi strukturu dastanın bütün boylarında çox aydınlıqla "orda" termini ilə ifadə olunmuşdur. Təəssüf ki, "Dədə Qorqud kitabı"nın tədqiqatçıları oğuzların "orda" termini ilə ifadə olunan etnososial-siyasi strukturunu düzgün başa düşmədiklərindən Azərbaycan oğuzlarının ictimai quruluşu haqqında qeyri-obyektiv mülahizələr irəli sürmüşlər. Hansı ki, "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrində "orda" termini



bütün boylarda birmənalı hərbi-demokratiya ictimai quruluşu mənasını ifadə edən termin kimi işlənmişdir. ("Orda" termini haqqında ətraflı bax: 11, 74-75). Azərbaycan oğuzlarının "Dədə Qorqud kitabı"nda ifadə olunan ictimai quruluşu arxeoloyi abidələrdə, maddi mədəniyyətdə aydın iz qoymuşdur. Belə ki, e. ə. II minilliyin sonu - I minilliyin ilk yüzillikləri elmdə siklop tikililəri adlanan qalaçaları xalq oğuz qalası, daş qutu qəbirləri, ilk "irsi əyanlar"ı əks etdirən daş kişi heykəllərini oğuz heykəlləri adlandırır (53, 112-118; 71, 62-175; 73; 74, 27-36; 20,81).

Oğuz terminə yazılı ədəbiyyatda ilk dəfə Orxon-Yenisey abidələrində VII əsrə aid hadisələrilə bağlı rast gəlinməsi ilə əlaqədar termininin bu dövrdə yaranması kimi yanlış anlayış meydana çıxmışdır. Yuxarıda gördüyümüz kimi, paleolitdən başlayıb vahid etnik mədəniyyət kimi inkişaf edən Xəzərsahili etnik birlik artıq e. ə. III minillikdə Şərqi Avropanı əhatə edir, Asiya qitəsində Çin hüdudunu aşıb keçirdi. Sonra bu mədəniyyət arxeoloji və antropoloji yekdilliyinə, ümumiliyinə görə sak-skif mədəniyyəti adlandırıldı (75). Bu dövrün, ümumən, kurqan adlandırılan təpə qəbirləri Ukraynada və ayrı-ayrı türk xalqlarında oğuz qəbri adlanır (2, 23-29). Mil-Qarabağ düzündə, xüsusilə Kiçik Qafqazın ətəyi Arazbar-Gəyən düzündə xalqın "tökmə təpə" adlandırdığı təpələrin sinonimi kimi "Oğuz təpəsi" adlandırılmasının uşaqlıq-gənclik illərində şahidi olmuşam. Maraqlıdır, tarixşünaslıqda sak-skif mədəniyyəti kimi tədqiq olunan dövrü folklor materialı bizə oğuz dövrü, mədəniyyəti kimi təqdim edir. Deməli, oğuz dövrü məsələsinə, etnik probleminə obyektivlik gətirmək üçün birinci növbədə bu məsələyə aydınlıq gətirmək lazımdır.

Göründüyü kimi, ilkin "Oğuz" mədəniyyəti ümumtürk mədəniyyətidir. Son tunc ilk dəmir dövründən oğuzların konkret ərazilərdə etnodiferensiallaşması ilə ayrı-ayrı türk xalqlarının yaranması prosesi başladı. Azərbaycanda bu proses "Dədə Qorqud kitabı" oğuznamələrində bütün aydınlığı ilə, sanki rəsmi şəkildə əks olunmuşdur. Azərbaycan oğuzları yerli, qohum qövmlər olmaqla, qonşu olaraq doğma yurdlarında xari-



80539
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ci təcavüzə qarşı könüllü olaraq birləşirlər. Bu birlik hələ ərazi vahidi kimi yetkinləşməmişdi. Yəni ayrı-ayrı qövmlərin ərazisi onların ümumi ərazisinə çevrilməmişdir. Buna müvafiq olaraq, etnososial yekdillik də yaranmamışdı. Hər bir qövmün ağsaqqallar şurası ilkin formasında fəaliyyətini davam etdirir, qövmlər ancaq onlara məxsus ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olur, yad tayfaların ərazilərinə qənimət ələ keçirmək məqsədilə basqınlar edirlər. İyirmi dörd sancaqdan ibarət Azərbaycan oğuzlarına xarici düşmənə qarşı hərbi birlik yaratmışdılar. Bu birlikdə "Dədə Qorqud kitabı" oğuznamələrində aydın və dəqiq "orda" termini ilə ifadə olunmuşdur. "Dədə Qorqud kitabı"ndan aydın görünür ki, Azərbaycan oğuzlarında qəbilə-tayfa birliyinin etnososial yekdilliyə çevrilməsinin başlanğıcı olduğu kimi, dövlət qurumu yaradılmasında da ilkin mərhələ idi. Xarici təcavüzə qarşı birləşən Azərbaycan oğuzları xanlar xanı Bayandır xanın rəhbərlik etdiyi qəbilə başçılarından ibarət hərbi şura vardır, bir də qövmlərin hərbi bəy titulu daşıyan bəylərinə rəhbərlik etdiyi üçün bəylər bəyi titulu daşıyan Qazan xan vardı. "Dədə Qorqud kitabı" Azərbaycan oğuzlarının xan, bəy, orda terminlərindən başqa dövlət idarəçilik termini və hər hansı idarəçilik orqanı yox idi. Ənənəvi tayfa idarəçiliyi üsulundan istifadə olunurdu. Bu birlik hərbi təşkilat kimi ilkin inkişaf mərhələsində idi. Oğuz gəncləri hərbi döyüşlərdə göstərdiyi şücaətə görə bəy adı-titulu alır, bəylərbəyi Qazan xanın məclisində yer tuturdu. "Dədə-Qorqud kitabı"ndan göründüyü kimi, Azərbaycan 24 sancaq oğuz elinin ərazisi hələ nə təsərrüfat vahidi idi, nə də vahid hərbi birlik, nə də etnisosial birlik idi. Könüllü hərbi birlik idi. Qövmlər istənilən vaxt birlikdən çıxa bilirdi. Hərbi rəhbərlik isə onu məcburi surətdə birlikdə qalmağa məcbur etmirdi.

Qazan xan adəti üzrə evini yağmalatdırarkən bir dəfə Taş Oğuz bəylərini mərasimə dəvət etmir. Bundan inciyən Taş Oğuz bəyləri Qazan xanın çağırışına gəlmirlər. Qazan xan Taş Oğuz ordasını hərbi birlikdə qalmağa məcbur etmir. Bu istiqamətdə heç bir tədbir həyata keçirmir. Aruzun Beyrəyi öldürməsindən sonra Beyrəyin qisasını almaq üçün Qazan xan hərbi ittifaqla Taş Oğuza hücum edir, Aruzu öldürdükdən sonra, qövmlə artıq savaşa təşəbbüs göstərmir, eləcə də Taş Oğuz bəyləri döyüşü dayandırırlar (1, 123-126). Yaxud da ov zamanı Bəkilin sərraf atıcılığı diqqəti cəlb edir, "Bu hünər atınmıdır, ərinmidir?" - deyə müzakirəyə səbəb olur. Qazan xanın "Yoq, at işlətməsə, ər ögünməz. Hünər atındır" - deməsi Bəkilə xoş gəlmir, o, öz dəstəsi ilə Qazan xandan ayrılıb gedir. Dastandan göründüyü kimi, Bəkili birlikdə saxlamaq üçün heç bir tədbir görülmür. Bəkilin atdan yıxılıb ayağını sındırdığını bilən Şöklü Məlik onun ordasına qarətçi basqın edərkən Bəkil Bayandır xana xəbər göndərib Qazan xanı köməyə göndərməsini diləyir, ancaq Əmiran bu təklifi bəyənməyib özü təkbaşına düşmənə qalib gəlir, bundan sonra Qazan xanın divanında yer tutur (1, 104-109). Göründüyü kimi, "Dədə Qorqud kitabı" Azərbaycan oğuzlarında hərbi demokratiya tam möhkəmlənib dövlət qurumuna çevrilməmişdi. "Hər bir yaşlı kişi tayfada döyüşçü olduğu zaman xalqdan ayrı olan və ona qarşı qoyula biləcək bir ümumi hakimiyyət yox idi. İbtidai demokratiya hələ tam tərəqqidə idi" (72, 259). Oğuz qəbilələri heç bir ərazini fəth edib orada hökmranlığını qurmur, ələ keçirdiyi qənimətləri qəbiləsinə gətirməklə kifayətlənirdi. Ona görə ki, "fəth edilənlər üzərində hökmranlıq qəbilə quruluşu ilə bir yerə sığmırdı" (72, 303). Oğuzların qəhrəmanlıq dövrü sosial-siyasi strukturunda qəbilə təşkilatı hələ tamamilə qüvvədə qalmışdı. "Biz burada əmlaka uşaqların vərəsə olduqları ata hüququ olduğunu görürük, bu da sərvətin ailədə toplanmasına səbəb olurdu və qəbilənin əksinə olaraq, ailəni gücləndirirdi; ilk irsi əyanlar və çar hakimiyyəti rüşeymlərinin əmələ gəlməsi vasitəsi ilə əmlak sahibliyi fərqləri ictimai quruluşa əks təsir göstərirdi" (72, 262). "Dədə Qorqud kitabı" oğuznamələrində işlənilən qul, nökər və s. terminlərdə əməyin istismarının ilkin rüşeymlərini görürük. Həmçinin Qazan xanın məclisində "Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksü qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nıgarlı məhbub kafər

qızları Qalın Oguz bəglərinə sağraq sürüb icərlərdi" (1, 42).

İqtibasdan və "Dədə Qorqud kitabı" oğuzlarının həyatından digər məlumatlardan hərbi yürüş zamanı əldə edilmiş əsirlərdən oğuzların məişətində istifadə edildiyi görünür. Bu, o qədər cüzi hadisədir ki, "Dədə Qorqud kitabı" oğuzlarının sosial-iqtisadi həyatında önəmli yer tutmur. AMEA-nın müxbir üzvü T. Hacıyev haqlı olaraq yazır ki, dastanlardakı ictimai quruluş çox qədimlərə aiddir. Əsərdə qul sözü var, ancaq bu, quldarlıq cəmiyyəti anlayışı yaratmır. Ümumiyyətlə, boylarda "qul" sözü çoxmənalıdır: yerinə görə insan, qulluqçu, nökər, əsir mənalarında çıxış edir; qul-xəlayiq, qul-qaravaş şəkillərində də işlənilir. Təbii ki, əsir alınan adamlar qul anlayışının tarixi mənasına uyğundur. Ancaq dastandakı "qullar" nəzarət altında deyil, adi nökərlər kimi işləyirlər. Oğuzlarda qullar at saxlayır, at minirlər. Təbii ki, qul sahibinin atını minib qaça bilər. Qul anlayışı qədim türklərdə "nökər", "dost", "azad döyüşçü", "hərbi qulluqçu" mənalarında işlənmişdir (3, 10-11). Əslində "qul" sözünün əsas mənası başqasına tabe olmaqdır. "Qul" sözündə bu çalar XIX əsrə qədər qorunub saxlanıb" (11, 66-68). T. Hacıyev düzgün olaraq belə qənaətə gəlir ki, "Ya bu quldarlıq əlaməti deyil, ya da bizim marksist fəlsəfədən ictimai quruluşlar haqqında bildiyimiz təyinatlar Avropa standartlarına uyğundur, türk-Oğuz tarixinin spesifikasını açmır" (3, 10-11). "Dədə Qorqud kitabı"ndakı dastanlarda təsvir olunan hadisələrdən aydın görünür ki, oğuzlarda ağalıq-tabelik, başqasının əməyinin mənimsənilməsinin, başqası üzərində hökmran olmağın ilkin mərhələsindən bəhs olunur. Burada quldarlığın, dövlətçiliyin, torpaq və feodal rentasına aid heç bir sistem, qanun yoxdur. Hər şey ilkin başlanğıc mərhələsindədir.

"Dədə Qorqud kitabı"ndakı oğuznamələrdə dövlətçilik axtaran vətənpərvər dilçi, filoloq və folklorşünaslarımızı qınamıram, Azərbaycan tarixşünaslığı problemin açımı üçün material vermədiyindən, onların araşdırmalarının bu cəhətində natamamlıq qalmaqdadır.

Tarixi qanunauyğunluq olaraq bütün dünya xalqları qəhrəmanlıq dövründə-hərbi demokratiya mərhələsində müqəddəs keçmişi-tayfa adət-ənənələrini tərənnüm edən folklor əsərləri - dastanlar yaradır (68; 72). Bu tarixi qanunauyğunluq "Dədə Qorqud kitabı"ndakı oğuznamələrdə çox aydınlıqla görünmədədir. Azərbaycan Oğuz tayfa ittifaqına daxil olan, hərbi demokratiya-qəhrəmanlıq dövrünü keçirən qövmlər müqəddəs keçmişi-tayfa adətlərini tərənnüm edən dastanlar yaradır. Bu dastanları eyni mənşəli, qohum (bir qövmün kişiləri digər qövmün dayısı idi), eyni inkişaf mərhələli qohum tayfalar tərəfindən yaradıldığı üçün vahid etnosun adət-ənənəsi, mənəvi dünyası, bütövlükdə, mədəniyyəti haqqında dastan kimi meydana çıxır. Tayfa ittifaqına daxil olan toplumun etnik simasını müəyyən edir. Etnosu bir etnos olaraq gələcəyə aparacaq mədəni-mənəvi dəyərlərin təməl sənədi olaraq yaranır.

"Dədə Qorqud kitabı"nın hərbi "qəhrəmanlıq dastanı" adlandırılması bu əsərin bəsitləşdirilməsidir. Hərbi qəhrəmanlıq Azərbaycan oğuzlarına məxsus xarakter xüsusiyyətlərdən biridir. Əsər Azərbaycan türklərinin mənəvi dəyərlər sistemi, mentalitetinin təməl sənədidir (31, 111-141; 32). "Dədə Qorqud kitabı" oğuznamələrini onların milli dəyərlərinin qorunması haqqında qəhrəmanlıq dastanı adlandırması daha obyektiv olardı.

Beləliklə, e. ə. II minilliyin ikinci yarısı - I minilliyin ilk yüzillikləri hərbi demokratiya mərhələsində Azərbaycan oğuzlarının etnokonsolidasiyası prosesində xalq kimi təşəkkülünün ilkin mərhələsində bu dövrü tərənnüm edən "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinin yaranması başa çatır, etnososial inkişafın nəticəsi olaraq oğuzların həyatında etnonim dəyişməsi baş verir. Oğuz etnonimindən Alban özünüadlandırmasına keçid prosesi başlayır. Alban etnoniminin inkişafda olduğu dastanlarda aydın ifadə olunmuşdu. Alpan adı oğuz adının sinonimi kimi işlənir, Qazan xan "Alpanlar başı" adlandırılır (1, 69, 99-100, 102, 104-105, 108, 123).

"Dədə Qorqud kitabı" oğuzlarının və oğuznamələrinin dövrü haqqında dolaşıqlıq salan bir neçə məqamdan qısa da olsa, xüsusi bəhsə lüzum görürük. Bunlardan biri "Dədə Qor-

qud kitabı" oğuzlarının dövləti və 90 min ordusu olması haqqında məlumatdır (1, 68-74). Bu məlumat orta əsr dastançılarının mübaliğəsindən başqa bir şey deyildir. "Dədə Qorqud kitabı"nda tərənnüm olunan oğuzların ordusu və dövləti yox idi. Tayfalar arasında ilkin hərbi ittifaqlar yaranırdı. Ümumən hər bir tayfanın yaşlı kişiləri istehsalçı olmaqla bərabər, eyni zamanda onun hərbçiləri idi. Xüsusi hərbçi təbəqə ilkin yaranma mərhələsində idi. Oğuzların xüsusi sosial təbəqə orduları olmadığı üçün yürüş edib tutduqları əraziləri hakimiyyətləri altına almaq iddiasına düşmür, qarətlə kifayətlənirdilər. Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə I Şah İsmayılın hakimiyyəti dövründə müharibə illərində orduların sayını 60 minə çatdırmaq mümkün olmuşdur (77, 248).

"Dədə Qorqud kitabı" araşdırıcılarından E. Əlibəyzadə öz tədqiqatlarında müxtəlif tarixi dövrlərdə mövcud olmuş Dədə Qorqudlardan bəhs etsə də, bunları "mətləbə dəxli" olmayan (4, 51) iş hesab edərək, Azərbaycan oğuznamələrindəki Dədə Qorqudu 620-ci ildə 70-80 yaşlarında Məhəmməd peyğəmbərin müasiri olması iddiasındadır (4, 50-57). Bu qənaətə uyğun olaraq Azərbaycan "Dədə Qorqud kitabı" oğuznamələrinin VI-VII əsrlərdə yaranması mövqeyindədir. "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinin əksər azərbaycanlı tədqiqatçıları da bu mövqedədirlər. Odur ki, onlardan xüsusi bəhs etməyə ehtiyac duymuruq. "Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından, Qorqut ata diyərlər, bir ər qopdu. Oğızın, ol kişi təmam bilicisiydi, - nə diyərsə, olırdı. Qaibdən dürlü xəbər söylərdi. Həq təala anının könlünə ilham edərdi...

Qorqut ata Oğuz qövminin müşkilini həll edərdi. Hər nə iş olsa, Qorqut ataya tanışınca işləməzlərdi. Hər nə ki buyursa qəbul edərlərdi; sözün tutub təmam edərlərdi..." (1, 31) - deyə tərənnüm olunan Dədə Qorqud doğrudanmı, Məhəmməd Peyğmbərin müasiri idi? "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrində və Orta Asiya türklərinin oğuznamələrində eyni hikmətləri söyləyən Dədə Qorqud eyni adamdırmı? Dərbənddə, Qazaxıstanda, Sırdərya boyunda, Kərkükdə dəfn



olunan Dədə Qorqudlar kimdir? XVI əsrdə ləzgiləri islama çağıran Dədə Qorqud, müxtəlif dövrlərdə müxtəlif türk sultanlarının vəziri olmuş Dədə Qorqudlar və s. Dədə Qorqudlar kimdir, onların "Dədə Qorqud kitabı"ndakı Dədə Qorqudla əlaqələri varmı, varsa, onun bağlılığı və kökü hardadır?

Problem Azərbaycan folklorşünaslarının diqqətini çəkmiş, obyektiv həlli istiqamətində səmərəli fikirlər də söyləmişdir. Məsələn, folklorşünas H. İsmayılov yazır: "Dədə Qorqud soylamış"... Bu sadəcə olaraq söz, ad, titul, epitet fərqləri deyildir, yəni formal bədii xarakter daşımır və özündə dünyagörüş və mədəniyyət sistemlərinin iri laylarını ifadə edir" (16, 58). Göründüyü kimi, problemə yanaşma onun açımı üçün düzgün müəyyənləşdirilmiş, lakin tədqiqat obyekti bu mədəniyyət sisteminin ozan-aşıq yaradıcılığı hissəsi seçildiyindən, bu hissədən bəhs olunmaqla kifayətləndiyindən problem açılmamış qalmışdır.

Ataxaqanlığı dövründə qəbilə daxilində böyük patriarxal ailələr yaranır. Nüfuzlu ailə başçıları tərəfindən idarə olunur. Bu ailələr qəbiləni dağıdan bir qüvvəyə çevrilir. Getdikcə sosial təbəqələşmə prosesində qəbilə daxilində belə ailələrin sayı artır. Mövcud irsi qəbilə əyanlarından əlavə, qəbilə daxilində yaranan yeni ziddiyyətləri nizama salacaq sosial bir institutun yaranması zərurətə çevrilir. Beləliklə, qəbilə-tayfa daxilində qəbilə başçıları, patriarxal ailə başçıları, bütövlükdə bütün qəbilə üzvləri, qəbilələrarası münasibətləri tənzimləyən ağsaqqallıq institutu yaranır. Dünyanın ayrı-ayrı xalqlarında onlara məxsus sözlərlə ifadə olunur (1; 72; 79; 80). Türk xalqlarında bu ilk ağsaqqallıq institutu Dədə Qorqud adlandırılır (1; 44; 45).

"Dədə Qorqud kitabı"nda deyilən "Qorqut ata diyərlər... Oğuzun, ol kişi təmam bilicisiydi, - nə diyərsə, olırdı. Qaibdən dürlü xəbər söylərdi. Həq təala onun könlinə ilham edərdi..." (1, 31) - sözləri onu ideallaşdıran mübaliğə deyil, ibtidai dövrün ağsaqqallarına məxsus keyfiyyətdir.

Qədim dövrün insanları görməsələr belə, uzaqdan gələn adamı hiss edirdilər, başqasının bədənindəki yaranı duyurdular, üzdəki cizgilərə görə insanın fikrini oxuyurdular. Onlar

çox şeyi qabaqcadan hiss edirdilər, müəyyən hadisələrin baş verməsini qabaqcadan duyurdular. Səsləri, sözləri, bədənləri ilə hiss edirdilər. Qabaqcadan hiss etmə həqiqətdən xəbər verirdi (12, 49-51). İbtidai cəmiyyət adamı fikirdə "keyfiyyət münasibətlərinə daha çox zəkalı idi, nəinki kəmiyyət münasibətlərinə. Onun təbiəti və bütün canlıları qavraması natura ilə yaratdıqlarının arasındakı fərqi aradan qaldırırdı" (12, 156).

Fransız filosof və psixoloqu L. Levi-Bryül yazır ki, "insan ruhunun məntiqi hər yerdə eynidir. O, avstraliyalıların və papausların etiqad və inamlarını diqqətlə, hərtərəfli öyrənərək göstərir ki, primitiv xalqların mifologiyası təşkil olunmuş olsa belə, onlar yekcins hadisələrdən doğulur və fövqəltəbiiliyin alternativ kateqoriyası ilə izah edilir (12, 157-158).

İbtidai-icma cəmiyyəti adamının duyumu və dünyagörüşü haqqında yuxarıdakı elmi nəticələr bir daha deməyə əsas verir ki, Dədə Qorqudun şəxsi keyfiyyətləri haqqında yuxarıda iqtibas etdiyimiz fikir mif və ya bədii obraz deyil, obyektiv, real şəxsiyyət keyfiyyətidir. Axı o, ibtidai dövrün seçilmiş, nadir adamlarından idi.

Qədim və orta əsrlərdə, hətta XIX əsrdə Azərbaycan və başqa xalqların həyatında Dədə Qorqud tipli real çoxsaylı ağsaqqallar, şəxsiyyətlər məlumdur. Şahidi olduğum bir hadisə bu tipli nümunələrdəndir. Cəbrayıl rayonunun Cullu kəndi dəmyə əkinçiliklə məşğul olurdu. Yağış onlar üçün həyat demək idi. Bütün əkinçilik təsərrüfatı yağışdan asılı idi. Odur ki, kəndin bütün sakinləri ayın doğmasını səbirsizliklə gözləyirdilər. Ayın doğmasını ilk görən adam qışqırıb camaata xəbər verirdi. Əsas məqsəd xəbəri dərhal kəndin təbiət bilicisi ağsaqqal Əsgər kişiyə çatdırmaq idi. Əsgər kişi dərhal kəndin yuxarı hissəsinə, dağın qəlbisinə qalxar, ayı müşahidə edib, aya güzgü tutub ondan havanın necə - günlərin yağmurlu, küləkli keçəcəyini ardıcıllıqla ucadan "oxuyur", ətrafdakı adamlar onu yadda saxlayırdılar. Onun dediklərində zərrəcə yanlışlıq olmazdı. Əsgər kişi bütün bunları ay doğan ilk 3 gündə onun üzündəki cizgilərdən oxuyurdu. Dediyinə görə, bunları



ona dayısı öyrədibmiş. Bu insanların əvvəlcədən fəhm etmək cəhdi nəticəsində ay üzərində min illərin müşahidəsindən toplanan bilgi idi. Ardıcıl ayı müşahidə edən Əsgər kişi çoxillik təcrübədən bütövlükdə ilin yağmurlu və ya quraq olacağını əvvəlcədən dəqiqliklə fəhm edə bilirdi. Ümumiyyətlə, bitki və heyvanlar üzərində aparılan çoxillik müşahidələrin nəticələri vasitəsi ilə ilin necə keçəcəyini qabaqcadan fəhm etməyin mümkünlüyü haqqında zəngin bilgi toplanmışdır (81; 82).

Göstərilənlərlə bərabər, praktiki güzəran psixologiyasını, xalq təbabətini gözəl bilən, telepatik insanlar qəbilə və tayfalarda, ellərdə qeybdən xəbər verən müqəddəs ağsaqqallara çevrilirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, bu sosial institutun yaranmasının kökləri ataxaqanlığı dövründən qoyulmuş sinfi cəmiyyətə keçid - hərbi demokratiya mərhələsində qəbilə və tayfaların həyatında qəbilə və tayfa ağsaqqallarının fövqündə duran sosial instituta çevrilmişdir.

Türk xalqlarının oğuznamələrində Dədə Qorqud ağsaqqallığı bir şəxsin nümunəsində yaranan hadisə olsaydı, o tarixin hər hansı bir hadisəsi ilə bağlı yaddaşa düşməklə yekunlaşardı. Bu sosial institut ictimai inkişafın yuxarıda göstərdiyimiz pilləsində vahid etnik mədəniyyətdən doğan türk xalqlarında "Dədə Qorqud" adı ilə meydana çıxmış sosial institutdur. Zəruri sosial hadisə olan bu institut yuxarıda göstərdiyimiz zəruri mənəvi keyfiyyətlərə malik şəxsiyyətlər vasitəsilə işləyirdi.

"Dədə Qorqud" sözünün məna çalarında bu ifadənin ağsaqqallıq institutu mənasını ifadə etməsi aydın görünmədədir. Oğuznamələrdəki "ata", "dədə" anlayışının türklərdə "əcdad", "ata" kultu ilə bağlı yarandığı, ağsaqqal mənasında işlədildiyi elmi ədəbiyyatda lazımınca əsaslandırılmışdır (16, 57-68). Qorqut isə qor və qut-iki tərkib hissədən ibarət mürəkkəb sözdür. "Qor" əski və müasir türk dillərində çoxmənalı sözdür. Onun başlıca iki mənası var: od və maya. M. Seyidov bunlardan əlavə, "qor" sözünün çoxçalarlı mənaları haqqında mə'lumat verir. Azərbaycan xalqı arasında adamların nara-

hatlıq hissi keçirdiyini bildirmək üçün "bu gecə yerimə elə bil qor dolmuşdu" ifadəsi işləndiyini bildirir (9, 42). Göründüyü kimi, burada "qor" sözü kimə və nəyə isə yanğılı, qayğılı hiss keçirmək mənasını ifadə edir. "Qut" isə qədim və müasir türk dillərində xoşbəxt, şərəf, mübarək, həyat qüvvəsi və s. mənalarda işlənmişdir (9, 136-142; 83, 72-79).

Göründüyü kimi, Dədə Qorqud adı "el üçün yanan ağsaqqal", "şərəfli ağsaqqal" mənalarını ifadə edir.

Deyilənlərdən belə qənaətə gəlmək olur ki, ilkin qəbilə-tayfa mərhələsində ağsaqqallıq institutu yaranarkən bu funksiyanı icra edən şəxslərə əhali tərəfindən Dədə Qorqud, yəni "şərəfli ağsaqqal", "el üçün yanan ağsaqqal" titulu verilmişdir. Müəyyən müddətdən sonra bu institut Dədə Qorqud adlanmış, bu funksiyanı icra edənlər fəxri Dədə Qorqud ləqəbi daşımışlar. Sonralar isə xalq Dədə Qorqudu fəxri ad kimi övladlarına verərək yaşatmışdır. Beləliklə, ağsaqqallıq institutunun fəaliyyətdə olduğu dövrlərdə Dədə Qorqud adı iki xətlə, ağsaqqallıq funksiyasını icra edən şəxslərə verilən titul, ləqəb olaraq, ayrı-ayrı şəxslərin övladlarına verdiyi ad olaraq yaşamışdır.

Dədə Qorqud institutunun yaranmasının təməli ilk tunc dövründə qoyulmuş, uzun müddət təkamül prosesi keçmiş, son tunc-ilk dəmir dövründə formalaşmaqda olan türk xalqlarının həyatında yeni çalarlarla ümumtürk mədəniyyəti kimi özünü göstərməklə fəaliyyət göstərirdi. Oğuznamələr içərisində ağsaqqallıq institutunu ən aydın, mükəmməl təsvir edəni "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələridir. Dastanlardan göründüyü kimi Dədə Qorqud bir ağsaqqal olaraq xanlar xanı Bayandır xanın, bəylərbəyi Qazan xanın, bütövlükdə 24 sancaq Azərbaycan oğuz elinin ziddiyyətlərini, mübahisələrini, müşküllərini həll edən, şadlıq məclislərində iştirak edən, yeniyetmələrinə ad verən "el üçün yanan ağsaqqal", "şərəfli ağsaqqal" olduğu çox aydın əks olunmuşdur. Bizcə, Dədə Qorqudun - "el üçün yanan ağsaqqalın", "şərəfli ağsaqqalın" məclisdə qopuzdan istifadə etməsi qəbilə və tayfanın kütləvi tədbirlərinin həmişə musiqi ilə müşaiyət olunması adəti ilə bağlı



institutun ilkin funksiyalarındandır. Ozan funksiyası isə hərbi demokratiyanın son-yüksək pilləsində qazandığı səviyyədir.

"Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrində ərəblər haqqında heç bir məlumat olmadığı halda, oğuz cəmiyyətində feodalizmin və dövlətin əlaməti görünmədiyi dövrdə dastanlarda təsvir olunan Dədə Qorqudun Məhəmməd peyğəmbərin müasiri olması mülahizələri qeyri-məntiqi və qeyri-obyektivdir. "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələri Azərbaycan oğuzlarının etnokonsolidasiya prosesində oğuz etnonimindən alban etnoniminə keçid mərhələsini, qəhrəmanlıq dövrü adlanan hərbi demokratiya ictimai quruluşunu tərənnüm edən dastandır.

Tədqiqatçılar tərəfindən "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinin hərbi qəhrəmanlıq dastanı kimi qiymətləndirilməsi onun məzmununun bütövlükdə dərk olunmasına mane olur. Dastanlarda tərənnüm olunan başlıca qəhrəmanlıq etnik adət-ənənəsinə sədaqət, onun qorunması yolunda göstərilən fədakarlıqdır. "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrində tərənnüm olunan hərbi qəhrəmanlıq, oğuzlara məxsus mənəvi dəyərlər sisteminin bir hissəsidir. Yeri gəldikcə, məqamında ondan bəhs olunur.

Bütün dünya xalqlarında etnososial inkişafın qanunauyğunluğu olaraq etnosun siniflərə parçalandığı dövrdə, bir ictimai quruluşdan digərinə keçid mərhələsində, yeni siniflərin yarandığı dövrdə cəmiyyətdə ideoloji yekdillik pozulur, sosial təbəqələrin ənənəvi əxlaq qaydalarına, adət-ənənəyə, mədəniyyətə münasibəti fərqli olur. Etnos bir-birinə qarşı duran sosial təbəqə və siniflərə çevrilir. Etnososial prosesin müəyyən mərhələsində yenidən bütün sosial təbəqələr üçün məqbul olan, onlar tərəfindən qəbul olunan ideologiya meydana çıxır və bütün sosial təbəqələr tərəfindən qəbul olunur, etnos yenidən vahid etnososial orqanizmə çevrilir. Etnosun mədəniyyətə vahid münasibəti yaranır.

Odur ki, etnososial keçid dövründə yaranış və digər dastanlar kütləvi tərənnüm obyektinə çevrilə bilmir, ailələrin,

sosial təbəqələrin məişətində yaşayır. Belə bir həyatı "Dədə Qorqud kitabı" - Azərbaycan oğuznamələri də yaşamışdır. E. ə. I minilliyin IX yüzilliyindən Azərbaycan dövlətlərinin yaranması zamanı cəmiyyətin qütbləşən sosial təbəqə və siniflərə parçalanması, yadelli əsarəti, dini və siyasi cərəyanların meydana çıxması prosesində "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinə əhali içərisində vahid münasibət olmur, daha doğrusu, müxtəlif sosial təbəqələr oğuznamələri vahid məclisdə dinləyə bilmir. Dastanlar qəhrəmanlıq keçmişinin, milli dəyərlərin təməl sənədi kimi ailələrin məişətində yaşayır. Tarixin belə məqamlarında ağsaqqallıq institutları milli vəhdəti tənzimləyən mənəvi sistem kimi daha da güclənir. Dədə Qorqud ağsaqqallıq institutu Azərbaycan oğuzlarının həyatında dövlət idarəçiliyindən qat-qat nüfuzlu bir mənəvi sistem olaraq inkişaf edir. Tez-tez yaranan və süqut edən ilk Azərbaycan dövlətlərinin varlığı dövründə "Dədə Qorqud" oğuznamələri kütləvi el mərasimlərində tərənnüm olunmasa da, xalqın mənəvi dəyərlər sistemini tənzimləyən milli ruhun mənbəyi kimi çıxış edir. Yadelli Sasani hakimiyyətinə qarşı üsyanların ruhi mənbəyi kimi çıxış edir. Sasanilər albanlara məğlubiyyət hissi aşılamaq üçün onlarda milli ruhu canlandıran mənbəyi tapmağa çalışırlar. Beləliklə, "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələri müəyyən edilib VI əsrdə fars dilinə tərcümə edilib öyrənilir (1, 17). Təsadüfi deyil ki, "Dədə Qorqud kitabı" - Azərbaycan oğuznamələri milli ruhun mənbəyi kimi ərəblərin də diqqətini cəlb edir, Harun-ər-Rəşidin hakimiyyəti dövründə ərəb dilinə tərcümə olunur (84, 16; 89, 28).

İslam dinini qəbul etməsi türklərin milli qüdrətini nümayiş etdirməsində səfərbəredici rol oynayır. Bütpərəstlik, xristianlıq və başqa inam və etiqadlara tapınan türklərin İslam dinin qəbul etməsi ilə ideoloji birliyi yarandı. Xilafətin tərkibində vahid dövlətdə (imperiyada) birləşdilər. Bu, türklərin birliyini daha da gücləndirdi. Beləliklə, xilafət daxilində "zəhmli qüvvəyə" çevrildilər, hərbi hakimiyyəti ələ aldılar (85). Təsadüfi deyil ki, türklərin bu əzəmətini Məhəmməd



peyğəmbər öncədən sezmiş, onun "Türklər sizə toxunmadıqca, siz də onlara toxunmayın, türklərlə sülh şəraitində yaşayın", "Türklər sizə toxunmadıqca, siz də türklərə toxunmayın. Cünki onlar çox sərt bir güc sahibidirlər" hədisləri yaranmışdır. Ərəb-islam mütəfəkkiri Cahiz türklərin milli xarakteri haqqında xüsusi əsər yazmışdır. Onların bir çox məziyyətlərindən bəhs edən Cahiz "türklər hərbdə əvəzedilməzdir", "bir türk ayrılıqda bir millət deməkdir" qənaətinə gəlmişdir (86). Ərəblər İslam dinini yaydıqları ilk çağlarda "müsəlman müsəlmanın qardaşıdır" ideyasına əməl olunur, tutduqları ərazilərdə hakim millətçilik siyasəti yeritmirdilər. Bu siyasət ərəb hakimiyyəti altına düşən xalqlarda onlara rəğbət yaradırdı. Lakin bu siyasət ərəb etnik hüdudundan çıxan ərəb qəbilə və tayfalarının yerli xalqlar tərəfindən tezliklə assimilyasiya edilməsi ilə nəticələnirdi. Ərəb xəlifələri bu siyasətin ərəb xalqı üçün mənfi nəticələrini gördülər. İlk dörd xəlifənin hakimiyyəti ilə bu siyasət sona çatdı, Ərəb xəlifələrində ərəb hakimiyyətçilik ideyası baş qaldırdı, buna cavab olaraq əsarət altına alınmış xalqlar varlıqlarını onlara qarşı qoydular. Artıq bu zaman türklər Xilafətdə hərbi hakimiyyəti ələ almışdılar, özləri İslamı yayan ideoloji, hərbi-siyasi gücə çevrilmişdilər. Ərəb-islam mədəniyyət mərkəzlərində yaşayan Azərbaycan və digər türk ziyalıları ərəblərdən qədim və mədəni xalq olduqlarını inqilabi şəkildə iddia edirdilər (84). Bu iddia ziyalılar səviyyəsində deyil, bütün xalq səviyyəsində idi. Odur ki, milli yaranış dastanı oğuznamələrə İslam əlavələri olundu.

Ərəblər tarixlərinin müəyyən mərhələsində İslam dinini qəbul etməklə yaradan tək Allahı dərk edib ondan güc, qüdrət aldıqlarını iddia etdikləri halda, oğuzlar yaranışdan müsəlman olduqlarını və yaradan tək Allahdan güc və ilham aldıqlarını iddia etdilər. Bu iddialar milli yaranış dastanları oğuznamələrə daxil edildi. Oğuzlar dolayı üsulla babaları Oğuz xanı Məhəmməd peyğəmbərə qarşı qoyub, onun Allah yolunda Məhəmməd peyğəmbərdən qüdrətli olmasını iddia etdilər.

Anası müsəlman olmayan ərəb Məhəmmədə 40 yaşında

tək olan Allahı mələklər vasitəsilə dərk və qəbul etmişdisə, Oğuz xan anadan olanda Allahın varlığı onun ruhunda idi. Odur ki, anası tək olan Allahın varlığını qəbul etməyincə onun südünü əmmir. Üçüncü gün anası tək olan Allahın varlığını qəbul etdikdən sonra onun südünü əmir. Bir yaşında dil açıb deyir: "Mən şah çadırında (bərgah) doğulmuşam, ona görə hamı məni Oğuz adlandırmalıdır". Uşaqlıqdan, böyüyüb kişiləşəndən ta ən yetkin çağına qədər Oğuz həmişə Allaha üz tutmuş, ona minnətdar olmuşdur. Istər yuxuda, istər ayıq halda həmişə o, böyük yaradanı mütləq yada salırdı. Ona Allah qapısı açılırdı" (15, 10-11; 28, 50-51).

Folklor ədəbiyyatında Oğuz xan oğuzların mifoloji başlanğıc hesab edildiyi halda, tarixi əsərlərdə Oğuz xan tarixi şəxsiyyət olub, Ağqoyunlu hökmdarı Uzun Həsənin ulu babası olduğu yazılır. Anonim "Qızılbaşlar tarixi" əsərində Oğuz xan Uzun Həsənin 51-ci, XV əsr tarixçisi Əbubəkr Tehrani isə Oğuz xanı Uzun Həsənin 55-ci babası olduğunu göstərir (87, 7; 88, 38-46). Sülalənin hər bir üzvünün hakimiyyətini orta hesabla 45-50 il hesab etsək, Oğuz xanının hakimiyyəti yuxarıda etnososial qanunauyğunluq və arxeoloyi materiallar əsasında hesabladığımız e. ə. II minilliyin sonu – I minilliyin ilk yüzilliklərində oğuznamələrin, o cümlədən, "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinin yarandığı dövrə düşür.

Orta Asiya oğuznamələrində oğuzların ərəblərə göstərdiyi iddiasını bir qədər mülayim şəkildə Azərbaycan oğuzları da iddia etmişdi. "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrində mifoloji başlanğıc Oğuz xan olmadığından Azərbaycan oğuzlarının kamil bilicisi Dədə Qorqud Məhəmməd peyğəmbərə qarşı qoyularaq bildirilir ki, o, Məhəmməd peyğəmbərdən əvvəl dünyaya gəlmiş... "Qaibdən dürlü xəbərlər söylərdi. Həqtəala onun könlünə ilham edərdi" (1, 31).

Türklərin ərəblərdən əvvəl yaradan tək Allahı qəbul etməsi və ondan güc və qüdrət alması, türklər arasında ərəblərdən əvvəl "qaibdən dürlü xəbərlər" verən şəxsiyyətlərin olması iddiası oğuznamələrdə aydın ifadə olunmuşdur.



Ərəb xilafəti daxilində milli ideyalar baş qaldırır. Milli yaranış dastanına malik xalqlar bu dastanlardan əxlaqi dəyərləri, milli ideyaları İslam ideologiyası zəminində sürətlə yenidən canlandırırlar. Xilafət hakimiyyətinin ilk illərindən oğuzlar arasında daha geniş tərənnüm obyektinə çevrilən dastanlardan biri "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələri olmuşdur. Mükəmməl əxlaqi dəyərlər sistemi, qəhrəmanlıq salnaməsi olan Azərbaycan oğuznamələri yenidən bütün sosial təbəqələrin iştirakı ilə keçirilən mərasimlərdə, ad günlərində ozanlar tərəfindən oxunur, milli ruhu canlandırır. Bütün oğuzlar kimi "Dədə Qorqud kitabı"ndakı Azərbaycan oğuzları da oğuznamələrdən başqa xalqlardan fərqlənmək, milli iddianı ortaya qoymaq vasitəsi kimi istifadə edirlər. Ərəb xilafətində hərbi-siyasi hakimiyyətə malik, qəhrəman keçmişləri ilə fəxr edən oğuzların qələbəsinin, gücünün mənbəyi tək yaradan Allahdan gəldiyi tərənnüm olunur. Fikrimizcə, "Dədə Qorqud kitabı" - Azərbaycan oğuznamələrinə yüksək xalq məhəbbəti olduğundan dastanlardan İslam dinini yaymaq məqsədi ilə istifadə olunub; oğuznamələrə İslam əlavələrinin bir səbəbi də budur.

Oğuznamələrdə dövlətçilikdən əvvəlki hərbi-demokratiya ictimai quruluşunu təsvir edən hadisələrə əlavə olunan VII əsrdən başlanan islam və yetkin feodalizm sosial-mənəvi hadisələri ilə daima ziddiyyət təşkil edir, oxucunun diqqətini bütün aydınlığı ilə cəlb edir. "Dədə Qorqud kitabı"ndakı Azərbaycan oğuzlarının məişətində İslamın adi elementi belə yoxdur. Oğuzların məclisində İslam adət-ənənəsinin hər hansı ünsürünə rast gəlinmir. Dastanlarda dəfələrlə süfrə, yemək məclisinin şahidi oluruq, bir dəfə də olsun məclis İslam qanunu ilə "bismillah"la açılıb "ələhəmdullillah"la yekunlaşmır, əksinə, məclislərdə həmişə "al şərabın istisi başa vurur", boylar yumla yekunlaşır.

Boylarda oğuzların döyüşqabağı abdəst alıb namaz qılmaları orta əsr ozanlarının Oğuznamələrə mexaniki əlavəsindən başqa bir şey deyildir. Oğuzlarda kimsənin qarşısına çıxa bilmədiyi Dəli Domrul tək olan Allahın varlığını qəbul etməklə Allah ona ömür bağışlayır; Basat Təpəgözün xəzinəsinə girib

çıxılmaz vəziyyətə düşəndə özü də bilmədən "La ilahə illəllah, Məhəmməd rəsülallah" deməsi ilə günbənd-xəzinə yarılır, yeddi yerdən qapı açılır, Basat qurtulur. Təpəgöz soruşur ki, oğlan qurtuldunmu? Basat cavab verir ki, "Tənrim qurtardı". Allahın qüdrəti, himayəsi ilə Basat Təpəgözün qılıncını əlindən alıb, onu öldürür. Oğuznamələrin dövrü və məzmunu ilə uzlaşmayan bu cür mexaniki əlavələr dastanlardan İslamı yaymaq vasitəsi kimi istifadə olunarkən ona daxil edilən əlavələrdir.

Təəssüf ki, "Dədə Qorqud kitabı"nın bəzi müasir tədqiqatçıları mexaniki hadisə uyğunluğundan istifadə etməklə Azərbaycan oğuznamələrində İslamı "əsaslandırmağa" çalışırlar.

Misal üçün birinci boyda sübh çağı, dan yeri söküləndə başlayan canlanmanı təsvir edən aşağıdakı şeri:

*Salqum-salqum tan yelləri əsdigində,*
*Saqallı boz ac turğay sayradıqda,*
*Saqalı uzun tat əri banladıqda,*
*Bədəvi atlar issini görüb oğradıqda,*
*Ağlı, qaralı seçilən çağda,*
*Köksü gözəl qaya tağlara gün dəgəndə,*
*Bəg igitlər cılsınlar bir-birinə qoyulan çağda (1, 34, 37).*-

soylamasında "saqalı uzun tat əri banladıqda" beytini müasir dilimizə çevirənlər "saqqalı uzun tat kişi azan çəkəndə" (1, 132, 135) kimi çevirmişlər. Beytin müasir dilimizə bu cür çevrilməsi Azərbaycan türklərinin etnoqrafiyası və dialektologiyasını bilməməyin nəticəsidir. Məsələn, Qarabağ dialektində tat sözü əkinçi, oturaq əhali, sakit adam mənasında işlənir. Söhbət zamanı ona müdaxilə etməyib, dinməzcə dinləyən adama deyirlər: "nə tat-tat baxırsan, fikrini bildirsənə", fikri bir qədər kobud şəkildə "gözünü nə tat-tat döyürsən, sözünü desənə" kimi də ifadə edirlər.

Şe'rdə aydın ifadə olunduğu kimi, dan yeri söküləndə, dan yeli əsməyə başlayanda, ağ qaradan seçiləndə, boz ac torağaylar civildəşib yem axtaranda, günəş şüaları ilkin olaraq dağlara dəyəndə "banlayan saqalı uzun tat ər" qəbilənin giriş yolunda və ya ən uca yerdə gizlincə, sakitcə gözləyən, "banlayıb"



bütün qəbilə üzvlərini yuxudan oyadan keşikçidir. Bu an azan vaxtına uyğun gəldiyindən etnoqrafiyanı bilməməkdən onu süni olaraq "azan çəkən" kimi müasir dilimizə çevirmişlər. Göründüyü kimi, "banlayan saqalı uzun tat ər" yaşayış məntəqəsində, məsciddə, minarədə deyil, səhər mehini ilk duyan, ağın qaradan seçildiyini, günəş şüalarının qayalara düşdüyünü ilk görən, dan yeri sökülən kimi civildəşib yem axtaran ac torağayların arasındadır. Göründüyü kimi, "saqalı uzun tat əri banladıqda" beytinin müasir dilimizə "Saqqallı uzun tat kişi azan çəkəndə" (1, 34, 37, 132, 135) kimi müasirləşdirilməsinin heç bir dil, sosial-mənəvi əsası yoxdur. Banlayan saqqalı uzun tat ər keşikçidir. Dan yeri əsəndə, ağ qaradan seçiləndə, ac torağaylar civildəşib dən axtarmağa başlayanda o da banlayıb - ucadan qışqırıb, çağırıb bütün qəbiləni yuxudan oyadır.

Digər bir misal "Salur Qazanın evi yağmalandığı boy"da oğuzların inam və etiqadı, dini baxışı ibtidai-icma təfəkkürü olaraq çox aydınlıqla ifadə olunmuşdur (1, 42-51). İgidləri ilə ovda olan Qazan qara qayğılı yuxular görür, yuxusunu qardaşı Qaragünəyə danışır. Qardaşı onun yuxusunun müəyyən hissəsini yozur, bir hissəsini yoza bilmir. Qazan 3 günlük yoldan ordasına qayıdır. Ordasının talan olduğunu görür, ilkin olaraq yurduna baş çəkir, onunla xəbərləşir:

*Qom qomlamım qoma yurdum!*
*Qulanla sığın-keyikə qonşu yurdum!*
*Sana yağı nerdən darımış, gözəl yurdum!*

Yurdundan cavab ala bilməyəndə su ilə xəbərləşir:

*Cığnam-çığnam qayalardan çıqan su!*
*Ağac gəmiləri oynadan su!*
*Həsən ilə Hüseynin həsrəti su!*
*Bağ ilə bostanın ziynəti su!*
*Ayişə ilə Fatimənin nikahı su!*
*Şahbaz atlar içdigi su!*
*Qızıl dəvələr qəlib keçəki su!*
*Ağ qoyunlar qəlib çevrəsində yatduğu!*
*Ordumun xəbərini bilirmisin, degil mana,*

*Qara başın qurban olsun, suyım, sana!*- dedi.

Sudan cavab ala bilməyən Qazan xan "Qurd yüzi mübarəkdir, qurdlən xəbərləşim" deyib qurddan soruşur:

*Ordımın xəbərin bilirmisin, degil, mana,*
*Qara başım qurban olsun, qurdum, sana!* - dedi.

Cavab ala bilməyən Qazan xan qara köpəklə xəbərləşib soruşur:

*Ordımın xəbərin bilirmisin, degil bana!*
*Qara başım sağlığında eyilüklər edəm, köpək, sana!* - dedi... (1, 44-45)

Göründüyü kimi, ibtidai etiqadların ən qədim inamlarına tapınma ilə Azərbaycanda İslam arasında çox böyük tarixi məsafə var. Qurda salavat çevirən, itə tapınan dünyagörüşün Ayişə, Fatima, Həsən, Hüseyn haqqında heç bir xəbəri ola bilməzdi. Olsa belə, bu dünyagörüşlər, müqəddəslər bir araya sığa bilməzdi. Göründüyü kimi, "Dədə Qorqud kitabı" Azərbaycan oğuzları ilə İslam dövrü dünyagörüşü arasında böyük tarixi məsafə var. Dastanlardakı uyğunsuz İslam əlavələrini oğuznamələrə İslam dövründə ozan və aşıqlar daxil etmişlər.

"Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrində farslar və ərəblər bir dəfə də olsun xatırlanmadığı halda dastanlara 136 fars, 350-ə yaxın ərəb sözü də sonrakı əlavələrdir (5, 123; 34, 202).

Tarixdən məlum olduğu üzrə farslar Midiya sərhədlərinə e. ə. VIII-VII əsrlərdə gəlmişlər. Bu dövrdə "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin formalaşması artıq başa çatmışdı. O cümlədən, bu dövrdə ərəblər hələ tarix səhnəsinə çıxmamışdılar. Odur ki, "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinə onlar haqqında heç bir məlumat daxil olmamışdır. "Dədə Qorqud kitabı"nın yaranmasından sonrakı dövrlərdə oğuzların fars və ərəblərlə təması türk dilinə keçən fars və ərəb sözlərini dastanları oxuyan ozan və aşıqlar oğuznamələrə daxil etmişlər. "Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrinin dilinin təmiz qalmasının başlıca səbəbi onun əsasən tərəkəmə-elat mühitində yaşaması və mühafizə olunmasıdır.



"Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin yaranmasından sonrakı dövr Azərbaycan türklərinin mənəviyyatında, mədəniyyətində, dilində, sosial-siyasi həyatında sürətlə diferensiallaşma, konsolidasiya, bunların nəticəsi olan yeniləşmə prosesi gedir. Bu özünü yeni etnonim və toponimlərin yaranmasında da göstərir. Odur ki, "Dədə Qorqud kitabı" - Azərbaycan oğuznamələrini məkanında yaşadan xalq, ozan, aşıq uzaq zaman kəsiyində olan hadisələri yeni toponimlər üzərində yaşadır. Bu səbəbdən də "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələri bizə ən qədim, ilkin toponimlərdə deyil, orta əsrlər toponimlərində gəlib çatır. Dastanlardakı toponim yeniləşmələri Azərbaycan hüdudunda deyil, oğuzların fəaliyyət hüdudunda, onların yürüş etdikləri ərazilərin toponim yeniləşmələri sistem halında dastanlara daxil edilir və milli yaddaş olaraq oğuznamələrdə yaşadılır.

Təsadüfi deyil ki, "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin ilk tədqiqatçısı alman şərqşünası H. F. Dits yazır ki, "Homerin eramızdan əvvəl VIII əsrdə yaratdığı poemasına "Kitabi-Dədə Qorqud"un təsiri var. "Buradakı Təpəgöz başqa sikloplara, hələ Homerin siklopuna bütün cəhətlərilə bənzəyir. Ancaq oğuz tsiklopu yunanlarınkından alınma deyil, yunanlarınkı bunun təqlididir" (20, 120). İngilis qorqudşünası C.Lüis yazır ki, "bu dastanların tarixi çox qədimdir. İslam tarixindən xeyli əvvəl yaranmışdır" (4, 27; 20, 122). Təpəgöz motivi "Kitabi-Dədə Qorqud"da var, antik dünyanın dahisi Homerin əsərində də, əslində isə ... "bu mövzu Qafqaz torpağı ilə bağlıdır" (4, 27, 29; 20, 122).

Azərbaycan folklorşünaslığında "Dədə Qorqud" oğuznamələrinin, xüsusilə "Basatın Təpəgözü öldürdüyü boy"un Homerin "Odissey" əsərinə təsir göstərdiyini Azərbaycan tədqiqatçılarından ilkin olaraq Ə. Sultanlı fəhm etmişdir (91, 91). Sonralar bu fikri daha əhatəli və elmi arqumentlərlə, gürcü və erməni mənbələri, folklorşünaslıq tədqiqatları əsasında M. Seyidov inkişaf etdirmişdir (9, 8-28). Filologiya elmlər doktoru, professor Q. Kazımov "Homerin poemaları və "Kita-

bi-Dədə Qorqud" adlı əsərində apardığı müqayisəli təhlil əsasında "Dədə Qorqud kitabı"nın Homerin əsərlərinə təsir etdiyini 23-dən çox müqayisə əsasında irəli sürmüşdür (92).

Avropa şərqşünaslarının və digər tədqiqatçıların "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin e. ə. VIII əsrdə Homerin əsərlərinə təsirini təsdiq etməsi, Azərbaycan oğuznamələrinin e. ə. VIII əsrdə tamamlanmış olması haqqında yuxarıdakı mülahizəmizi və oğuzların Kiçik Asiya-Anadolunun aborigen əhalisi olması faktını bir daha təsdiq edir.

Elmdə birmənalı sübut edilmişdir ki, doğulan, dünyaya gələn hər bir xalqın yaşı milli simanı yaşatması dövründən ibarət olur. Xalq milli simanın mənbəyi yaranış dastanlarına sədaqətlə yanaşdıqda, onda əcdadların qəhrəmanlıq ruhu yaşayır, mənəvi dəyərləri, əxlaqi sistemi ilkin təməlində tənzimlənir, xalqı yad, mənfi təsirlərdən qoruyur, xalqlar arasında biz və onlar fərqləndirməsində, əcdadını, özünü başqalarından fərqləndirir, qürurlu, əyilməz, məğlubedilməz edir.

Elə ki etnosun həyatında yad mənəvi təsirlər gücləndi, milli yaranış dastanlarına, bütövlükdə, milli-mənəvi dəyərlərə məhəbbət və qayğı arxa plana keçdi, etnos başqa xalqlar arasında biz və onlar fərqləndirməsində əcdadlarına, milli dəyərlərinə söykənə bilmir, başqalarına bənzəməyə çalışır, bu proses uzun müddət davam etdikdə etnos milli simanı itirir, öz mənəvi sistemindən çıxıb doğma mədəniyyətə yadlaşır, beləliklə, xalq tənəzzül edir, başqa xalqlar arasında əriyib itir.

Bu qanunauyğunluq çox xalqları real həyatdan tarixin yaddaşına keçirmiş, Azərbaycan türklərinə ibrət dərsi olaraq bunun acısını dadızdırmışdır. Hakimiyyət uğrunda mübarizə aparan Səfəvi sülaləsi milli ruhun, ideologiyanın mənbəyi "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrdən üz çevirib ona ögey münasibət bəslədilər. Oğuz varisi olmaqdan imtina edib özlərini yeddinci şiə imamı Museyi Kazımın iyirmi birinci nəsli elan etdilər. Hansı ki, təmiz türk idilər, "türkün piri" adlandırırdılar (77, 33-35; 94, 53). Farsların islam qiyafəsinə salınmış şiə gizli milli ideologiyasını zorla Azərbaycan



türkləri üçün milli ideologiyaya çevirməyə başladılar. Buna etiraz edən "minlərlə adamı edam etdilər" (93, 268). Ölkədəki bütün çatışmazlıqları hakimiyyətdə olan sünnilərin fəaliyyətinin nəticəsi olduğunu təbliğ edərək əhalinin ehtiyaclarından istifadə edərək onları öz tərəflərinə çəkib hakimiyyətə gələ bildilər. Onlar "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrindən gələn milli ruhu və ideologiyanı Azərbaycan türklərinə unutdurdular. Azərbaycan türklərinin tarixi qələbələri "Dədə Qorqud kitabı" Azərbaycan oğuzlarının milli adət-ənənəyə sədaqəti, oğuz igidlərinin, xanlarının, bəylərinin qəhrəmanlığı ilə deyil, farsların uydurduğu şiə ərəb şəxsiyyətlərinə etiqad və ibadətlə izah olunmağa başladı . (Biz bu fikri söyləməklə IV xəlifə Əli və onun nəslinin islam tarixindəki xidmətinə kölgə salmaq fikrindən uzağıq. İlkin olaraq farsların, sonra səfəvilərin bu fars uydurmasından Azərbaycan türklərini və bütövlükdə islam birliyinin parçalanmasının əleyhinəyik). "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin tərənnümü arxa plana keçdi, dastanlar unuduldu, milli ideologiya və Azərbaycan dövlətçiliyi süqut etdi. Bu siyasətin nəticəsi olaraq Azərbaycanda və İslam dünyasında İslam birliyi parçalandı. Azərbaycan türkləri əsarət altına salındı, məhkum həyatına məcbur edildi. "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələri Avropa arxivlərində qorundu. Bunun başlıca səbəbi avropalıların bu əsəri dəyərləndirə bilməsi idi. "Dədə Qorqud kitabı" – Azərbaycan oğuznamələrinin ilk avropalı tədqiqatçıları ilk yunan Avropa ədəbiyyatı Homerin "İliada" və "Odisseya" əsərlərində Azərbaycan oğuznamələrinin təsirini, ruhunu duydular, gördülər və qiymətləddirdilər. "Dədə Qorqud kitabı"nı lazımınca qiymətləndirmək üçün onun təsiri altında formalaşan yunan eposu haqqında K. Marksın bir fikrini xatırlatmaq yerinə düşər. O, yazırdı ki, "çətinlik yunan incəsənətinin və eposunun müəyyən ictimai inkişaf formaları ilə əlaqədar olmasını başa düşməkdə deyildir. Çətinlik bunların hələ də bizə bədii zövq verməsini və müəyyən mənada norma və misilsiz bir nümunə əhəmiyyətini

saxlamasını başa düşməkdədir" (95, 7).

XX əsrin 20-ci illərində Azərbaycan türk ziyalıları Avropa arxivlərində qorunan "Dədə Qorqud kitabı" ilə tanış olmağa başladılar, onun mahiyyətini də olduğu kimi başa düşdülər. Dastanların tədqiqi və nəşri həqiqi ziyalı qayğısı ilə əhatə olundu. Lakin imperiya canişinləri "Dədə Qorqud kitabı"nın Azərbaycan türklərinin milli ruhunu oyada və qaldıra biləcəyini başa düşdü. "Dədə Qorqud kitabı"nın 1950-ci il rusca nəşrini oxuyan Beriyaya "oğuz bəylərinin gürcü qızlarına şərab süzdürməsi" çox ağır gəldi. Həqiqətən dastandakı bu epizod gürcü-Azərbaycan türkü milli iddiasını çox incəliklə ifadə etmişdir. Beləliklə, bu halda Beriya Stalinə məlumat verir, o isə dastanların dərhal yığışdırılması, tədqiqatın dayandırılması haqda M.C.Bağırova göstəriş verir. M. C. Bağırov 1951-ci il 24 mayında keçirilən Azərbaycan kommunistlərinin XVIII qurultayında bildirdi: "Bu kitab (Dədə Qorqud kitabı - X. X.) tamamilə millətçilik zəhəri ilə doludur, müsəlman olmayan başqa xalqlara, əsasən qardaş gürcü və erməni xalqlarına qarşı yazılmışdır" (33, 10-15). Dastanın əleyhinə kampaniya başlayır.

Elə həmin vaxtda Moskvanın göstərişi ilə Türkmənistan mətbuatında "Dədə Qorqud kitabı"na qarşı kampaniya başladı. 1951-ci ilin avqustunda Türkmənistan Kommunist Partiyası xüsusi qərarla "Dədə Qorqud kitabı"nı yasaqladı. "Dədə Qorqud kitabı" haqqında yazılan rəylərin biri "Türkmən xalqına yad olan "Qorqut ata" adlanırdı. 1952-ci il Türkmənistan Kommunist Partiyasının XI qurultayında, 1953-cü il Türkmənistan Kommunist Partiyasının plenumunda "Dədə Qorqud kitabı" müzakirə olundu. "Dədə Qorqud kitabı" haqqında tədqiqat aparmış M. Kösəyev, B. Karıyev, O. Abdalov, A. Kekilov "xalq düşməni" elan edildi (33, 26-27).

Dədə Qorqud demişkən, bu savaşda "bəg nökərindən, nökər bəgindən ayrıldı", yuxarıda adlarını çəkdiyimiz türkmən vətənpərvərləri, Azərbaycanda isə "olumla ölüm arasında yaşayan", "Dədə Qorqud kitabı" haqqında yazanlardan zadəgan mənşəli H. Araslı və Ə. Dəmirçizadə fikirlərini və mövqelərini dəyişmədi.



1957-ci ilin martında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi İ. Mustafayevin milli ruha sədaqət nümayiş etdirməsinin nəticəsi olaraq, onun himayəçiliyi ilə H. Araslı, Ə. Dəmirçizadə, M. Arif, M. Təhmasib yenidən "Dədə Qorqud kitabı" ilə bağlı tədqiqata başladılar. Türkmənistanda isə "Dədə Qorqud kitabı" üzərindən yasaq 1987-ci ilin oktyabrında götürüldü.

Müstəqillik illərində yazarlarımızın "Dədə Qorqud kitabı"nın tədqiqinə diqqətin artması vətənpərvərliyin nəticəsidir. Əsarət illərində xalqımızın itirdiyi milli dəyərlərin bərpasına yardımçı olmaq istəyidir. Təqdirəlayiq işdir. Təəssüf ki, bəzi yazarlar "Dədə Qorqud kitabı"nın mahiyyətini təhrif edir, oğuznamələrin başa düşülməsini çətinləşdirir. "Dədə Qorqud kitabı"nın tədqiqatçısının ruhu milli tarixin ən dərin qatlarından gəlməli, yüksək elmi səviyyəyə, tarixi müqayisəli və struktur təhlil və başqa metodlara bələd olmalı, etnososial inkişafın ümumi və xüsusi qanunauyğunluqları, mənəvi mədəniyyətin sistemi və təkrar istehsalı və s. qanunauyğunluqları haqqında bilgiyə və onu tətbiq etmək qabiliyyətinə malik olmalıdır. Əks təqdirdə "Dədə Qorqud kitabı" üzərində aparılan tədqiqatda uğur qazanmaq mümkün deyildir. "Dədə Qorqud kitabı" haqqında tədqiqatların böyük əksəriyyətinin bir-birini təkrarlamasının əsas səbəb də elə budur.

## ƏDƏBİYYAT


1. Kitabi-Dədə Qorqud. Bakı, 1988.
2. Ş. Cəmşidov. "Kitabi-Dədəm Qorqud". Bakı, 1999.
3. T. Hacıyev. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı, 1999
4. E. Əlibəyzadə. Kitabi-Dədə Qorqud. Bakı, 1999
5. В. В. Бартольд. Турецкий эпос и Кавказ. В. В. Бартолд. Книга моего деда Коркута. Бакы, 1999
6. А. Ю. Якубовский. "Китаби Коркуд" и его значение для изучения туркменского общества в эпоху раннего средневековья. В. В. Бартольд. Книга моего деда Когкута. Бакы, 1999
7. В. М. Жирмунский. Огузский героический эпос и "Книга Коркута" - В. В. Бартольд. Книга моего деда Когкута. Бакы, 1999
8. B. Budaqov. Təbiət poeziya işığında. Bakı, 2006
9. M. Seyidov. Azərbaycan-erməni ədəbi əlaqələri. Bakı, 1976
10. A. Bayramov. Kitabi-Dədə Qorqud və Qafqaz. Bakı, 2001
11. L. Qumilyov. Qədim türklər. Bakı, 1993
12. A. Şükürov. Fəlsəfə və zaman. Bakı, 1998
13. А. Н. Бернштам. Историческая правда в легенде об Огуз-кагане - Советская этнография, 1935, N6
14. С. С. Алияров. Об этногенезе Азербайджанского народа. К проблеме этногенеза Азербайджанского народа. Бакы, 1984
15. Fəzlullah Rəşidəddin. Oquznamə. Bakı, 1992
16. H. İsmayılov. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı, 2002
17. Qızılbaşlar tarixi. Bakı, 1993
18. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Bakı, 1998
19. Altay Məmmədov. Oğuz səltənəti. Bakı, 1992
20. Anar. Dədə Qorqud dünyası. "Azərbaycan" yurnalı, 1985, N11
21. B. Abdulla. Kitabi-Dədə Qorqud və İslam dini. Bakı, 1997
22. B. Abdulla. "Kitabi-Dədə Qorqud"un poetikası. Bakı, 1999
23. K. Vəliyev. Dastan poetikası. Bakı, 1984
24. Y. Mahmudov. Azərbaycan tarixi intibah dövrü. Bakı, 1996
25. Ə. Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 1999
26. A. Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. Bakı, 2002
27. P. Xəlilov. "Kitabi-Dədə Qorqud" intibah abidəsi. Bakı, 1993
28. Əbülqazi Bahadır xan. Şəcəreyi-Tarakimə. Bakı, 2002
29. F. Sümər. Oğuzlar. Bakı, 1992





30. R. Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1992
31. Ə. S. Bayramov. Etnik psixologiya məsələləri. Bakı, 1996
32. Ə. Bayramov. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloyi xüsusiyyətlərin inikası. Bakı, 2000
33. Ə. Tahirzadə. "Kitabi-Dədə Qorqud"un faciəsi. Bakı, 2002
34. Azərbaycan tarixi. Bakı, 1996
35. Q. Rəcəbli. "Dədə Qorqud" oğuzlarının ilk vətəni haqqında. "Деде Коркут" - 1300. Материалы научный конференции, посвященной 1300 летию этноса "Деде-Коркут (28-29 сентября 1999 года). Баку, 1999
36. M. Dadaşzadə. "Dədə Qorqud" dastanlarında Azərbaycan etnoqrafiyasına dair bəzi məlumatlar. Azərbaycan etnoqrafik məcmuəsi, 3-cü buraxılış. Bakı, 1977
37. A. Məmmədov. Yaradıcılıq psixologiyası. Bakı, 2000
38. V. Levi. Fikir ardınca. Bakı, 1972
39. Y. Sparina. Aha! Və onun sirləri. Bakı, 1972
40. F. İsmayılov. Ziqmund Freyd. Bakı, 1994
41. N. İsmayılzadə. Fenomenlərin sirri. Bakı, 1990
42. Xəlilli X. "Dədə Qorqud Kitabı" türklərin mədəniyyətinin, etnogenezinin və dilinin təməl sənədidir. - "Dədə Qorqud" yurnalı, 2005, N3 (16)
43. X. Xəlilov. Türk xalqlarının mənəvi, tarixi, qələbəsini təmin edən Bozqurd. "Dədə Qorqud" yurnalı, 2003, N3
44. Oğuznamələr. Bakı, 1993.
45. Oğuznamə. Bakı, 1987
46. М. М. Гусейнов. Древний полеолит Азербайджана. Бакы, 1985
47. Ə. Cəfərov. Azərbaycanın ilk sakinləri. Bakı, 2004
48. Средняя Азия и эпохи камня и бронзы. Москва, 1978
49. Ə. Cəfərov. Azərbaycanın orta paleoliti (rus dilində). Bakı, 1999
50. Ə. Cəfərov. Quruçay dərəsində. Bakı, 1990
51. Дж. Мелларг. Древнейшие цивилизации Ближнего Востока. Москва, 1982
52. Azərbaycan tarixi. I cild. Bakı, 1998
53. R.B.Göyüşov, A.İ.Martınov. SSRİ Arxeologiyası. Bakı, 1990
54. Ə. Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 1999
55. R.M.Qasımova. Azərbaycan xalqının etnogenezi paleoantropoloyi və antropoloyi (somatoloyi) materiallar əsasında. Bakı, 1997

56. Q. Kazımov. Azərbaycan dilinin tarixi. Bakı, 2003
57. T.İ.Hacıyev, K.N.Vəliyev. Azərbaycan dili tarixi. Bakı, 1983
58. Т. Исмаилзаде, Н. Исмаилзаде. Интеррегиональные связи в эпохи древнейщей земмдельческой культуры Азербайджана - Türkmənistay ve gündoğar halklarynyn taruhu - medeni mirasıy dünya ulgamyında. Aşqabad, 2002
59. R. M. Qasımova. Azərbaycan xalqının etnogenezinin paleontropoloyi və antropoloyi baxımdan öyrənilməsinin yekunları. Tarix və onun problemləri. Bakı, 1998, N1(3)
60. Г. Ф. Дебец. Антропологические исследования в Дагестане. Антропологический сборник. Нов. Сер. Вып. 1. Москва, 1956
61. Г. Ф. Дебец, Ю.А. Дурнова. Физические развитие людей эпохи енеолита в южном Туркмении. Советская Этнография. 1971, N1.
62. С. Ш. Гаджиева. Дагестанские терекеменцы (XIX - начало XX в). Москва, 1990
63. И. В. Куклина. Этнография скифи по античным источникам. Ленинград, 1985
64. Ə. Haqverdiyev. Araz. - Türk dillərinə dair etimoloyi tarixi morfoloyi tədqiqlər. (Elmi əsərlərin tematik məcmuəsi). Bakı, ADU nəşriyyatı, 1987
65. Azərbaycan tarixi. Bakı, 1994
66. B. Ə. Budaqov, Q. Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998
67. И. Авдиев. История древнего Востока. Москва, 1970
68. Y. Yusifov. Qədim Şərq tarixi. Bakı, 1993
69. Azərbaycan tarixi. I cild. Bakı, 1998
70. H. Cəfərov. Azərbaycan e. ə. IV minilliyin axırı I minilliyin əvvəllərində. Bakı, 2000
71. Elçibəy. Azərbaycandan başlayan tarixi. Bakı, 2003
72. F. Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. K. Marks, F. Engels. Seçilmiş əsərləri, II cild, Bakı, 1953
73. Таваккул Расулоглу. Циклопические сооружения на территории Азербайджана. Бакы, 1993
74. К. Т. Каракашлы. Материальная культура Азербайджанцев. Бакы, 1964
75. Степи европейской части СССР в скифо-сарматское время. Москва, 1989



76. Eski türk devletlerinda idari-askeri ünvan və terminlər. İstanbul, 1988
77. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
78. M. Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983
79. Е. Б. Тайлор. Первобытная культура. Москва, 1989
80. М. О. Косвен. Очерки истории первобытной культуры. Москва, 1953
81. Q. Cavadov. Azərbaycanda əkinçilik təqvimi və xalq meterologiyası. Bakı, 1984
82. Календарные обычаи и обряды народов Восточной Азии. Новый год. Москва, 1985
83. H. Əliyev. Ümumi antroponimika problemləri. Bakı, 1985
84. M.Qəmbərli. Ərəb ədəbi-bədii qaynaqlarında türk. Bakı, 1998
85. Ф.М. Асадов. Арабские источники о тюрках раннее средневековье. Бакы, 1993
86. Əbu Osman B. Bəhr Əl-Cahiz Əl-Bəsiri. Türklərin fəzilətləri. Bakı, 2001
87. Qızılbaşlar tarixi. Bakı, 1993
88. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Bakı, 1998
89. Ə. Səfərli, X. Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1982
90. F. İsmayılov. Ziqmund Freyd. Bakı, 1994
91. A.Şükürov, G.Abdullazadə. Azərbaycan fəlsəfəsi. Bakı-, 1993
92. Q. Kazımov. Homerin poemaları və "Kitabi-Dədə Qorqud". Bakı, 2006
93. Azərbaycan tarixi. I cild. Bakı, 1961
94. N. Şəmsizadə. Azərbaycan ideologiyası. Bakı, 1996
95. K. Marks. Yunan incəsənəti haqqında. Antik ədəbiyyat müntəxəbatı. Bakı, 1950
96. H. Məmmədli. Dünyanı düşündürən "Dədə Qorqud". Bakı, 1999
97. M. İsmayılov. Sənin ulu baban. Bakı, 1989

**Xəliyəddin Xəlilli.**
**Dədə Qorqud oğuznamələrinin yaranma tarixi və digər oğuznamələrlə paralellərin dövrü və səbəbləri,**
Bakı, "Nurlan" nəşriyyatı, 2007.

**Nəşriyyat direktoru:**
***prof. Nadir Məmmədli***

**Kompüterdə yığdılar:**
***Ruhəngiz Əfəndiyeva***

**Korrektor:**
***Tahir Orucov***

**Kompüter tərtibçisi**
**və texniki redaktoru:**
***Ləman Qafarova***

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 3 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab "Nurlan" nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.

2007
790